# Azər Paşa Nemətov son mənzilə yola salındı

Xalq artisti İkinci Fəxri xiyabanda dəfn olunub




**Azərbaycan mədəniyyətinə daha bir ağır itki üz verib.**

Milli teatr sənətində müstəsna xidmətləri olmuş görkəmli rejissor, Xalq artisti, Azərbaycan Teatr Xadimləri İttifaqının İdarə Heyətinin sədri, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru Azər Paşa Zəfər oğlu Nemətov aprelin 9-da ömrünün 76-cı ilində vəfat edib.

(səh.6)



## Vaxtı məlum olub

Əfv Komissiyasının növbəti iclası aprelin 12-də baş tutacaq

**Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclasının vaxtı müəyyənləşib.**

" Komissiyanın növbəti toplantısı aprelin 12-də baş tutacaq.

İndiyədək iclaslarda əfvlə bağlı 1 400-dən məsələyə baxılıb.

№ 61 (5822) 2023-cü il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 11 aprel 2023-cü il (çərşənbə axşamı)




# Nərimanovun Naxçıvan şəhərindəki büstü yerinə qaytarılıb

Hazırda büstün ətrafında yaşıllaşdırma işləri aparılır

**Azərbaycanın görkəmli yazıçısı və dövlət xadimi Nəriman Nərimanovun Naxçıvan şəhərindəki büstü əvvəlki yeri qaytarılıb.**

Onun Nizami küçəsindəki Böyük bağ adlanan ərazidə yerləşən büstü təmir-bərpadan sonra yerinə qoyulub.

Hazırda büstün ətrafında yaşıllaşdırma işləri aparılır.

*Qeyd edək ki, təmir-tikinti işləri ilə bağlı Nəriman Nərimanovun Naxçıvan şəhərinin Nizami küçəsindəki Böyük bağ adlanan ərazidə yerləşən büstü müvəqqəti götürülmüşdü.*



## Azərbaycan-Qazaxıstan sənədləri imzalanıb

İki ölkə arasında Ali Dövlətlərarası Şura yaradılacaq

**Aprelin 10-da Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası Ali Dövlətlərarası Şurasının yaradılması haqqında Protokolu" və dövlət başçılarının birgə bəyanatını imzalayıblar.

(səh.2)

## Regional sülh müzakirə olunub

Müdafiə nazirinin müavini Çarlz Braunla görüşüb




**Azərbaycan müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov ABŞ Hərbi Hava Qüvvələrinin Baş Qərargah rəisi general Çarlz Braunla görüşüb.**

Bu barədə ABŞ Hərbi Hava Qüvvələrinin Baş Qərargah rəisi "Twitter" hesabında məlumat verib.

"İkitərəfli müdafiə əlaqələrimiz, regional sülh və sabitliyin qorunması ilə bağlı məhsuldar müzakirələr apardıq", - o bildirib.

Görüşdə Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahim də iştirak edib.

# "Ermənistanla sülh müqaviləsi üzərində iş başlanıb"

## Prezident İlham Əliyev: "Amma bizim istədiyimiz kimi rəvan getmir"



**Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev mətbuata bəyanatlarla çıxış ediblər.**

**Əvvəlcə Qazaxıstan Prezidenti bəyanatla çıxış edib.**

*Prezident Kasım-Jomart Tokayevin bəyanatı*

*- Hörmətli İlham Heydər oğlu.*

*Hörmətli xanımlar və cənablar.*

Mən bu gün aparılmış tamformatlı danışıqların nəticələrini yüksək qiymətləndirirəm. Bu danışıqlar hər ikimizin ikitərəfli əlaqələri hər vasitə ilə möhkəmləndirmək əzmində olduğumuzu bir daha təsdiq etdi. Hörmətli İlham Heydər oğlu ilə səmimi şəraitdə əməkdaşlığımızın bütün aspektlərinə dair fikir mübadiləsi apardıq, necə deyərlər, regional və beynəlxalq problemlər barəsində saatlarımızı tutuşdurduq, iki ölkənin qarşılıqlı əlaqələrinin perspektivlərini və daha da dərinləşdirilməsi istiqamətlərini müzakirə etdik.

(səh.2)

# Gərginlik azalır

## Azərbaycan və İran arasında məsləhətləşmələr davam etdiriləcək



**Azərbaycan və İran arasında davam edən gərginlik fonunda iki ölkə rəsmisinin təmasları olub. Aprelin 7 və 8-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian arasında telefon danışığı baş tutub. Danışıq zamanı iki ölkə arasında mövcud olan narazılıq və anlaşılmazlıqlarla bağlı müzakirə aparılıb.**

Anlaşılmazlıqların aradan qaldırılması üçün danışıqların davam etdirilməsinin vacibliyi vurğulanıb.

(səh.3)



## Ağdamda ayaqqabı istehsal olunacaq

**Ağdam Sənaye Parkında ayaqqabı istehsalı müəssisəsi yaradılacaq.**

Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov tvitter səhifəsində yazıb.

Nazirin sözlərinə görə, Ağdam Sənaye Parkında daha bir sahibkarlıq subyektinə rezident statusu verilib və rezidentlərin sayı 15-ə çatıb.

"Sənaye parkında yeni rezident BAFCO İnvest MMC tərəfindən investisiya həcmi 10 mln. manat olan müxtəlif təyinatlı çəkmə və ayaqqabıların istehsalı müəssisəsi yaradılacaq və 120 nəfər işlə təmin ediləcək", - M.Cabbarov bildirib.

## Ölən olmayıb

Son sutkada 7 nəfər yoluxdu

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 7 yeni yoluxma faktı qeydə alınıb, 10 nəfər müalicə olunaraq sağalıb.**




Bu barədə "Şərq"ə Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib. Məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında ölən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 830 367 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 819 670 nəfər müalicə olunaraq sağalıb, 10 197 nəfər vəfat edib, aktiv xəstə sayı 500 nəfərdir.

*Ölkədə son sutka ərzində 612, hazırkı dövrədək isə 7 569 059 test aparılıb.*

## Kürdə suyun səviyyəsi artıb



**Kür Qıraqkəsəmən müşahidə məntəqəsinin bu günə olan məlumatına əsasən, çayda suyun səviyyəsi 336 sm-dir.**

Bu barədə Milli Hidrometeorologiya Xidmətindən xəbər verilib.

*Qeyd edilib ki, dünənki müşahidə ilə müqayisədə 25 sm artım var.*



## Fazil Mustafa mübarizənin ön sıralarına qayıdır

"Bundan sonra düşmənlərim üçün çox ağır olacaq"

(səh.3)



## Növbəti təxribat planı işə düşür

Ermənistan itkin düşən əsgərlərimizi "kəşfiyyatçı" kimi təqdim etməyə çalışır

(səh.3)

# "Ermənistanla sülh müqaviləsi üzərində iş başlanıb"

## Prezident İlham Əliyev: “Amma bizim istədiyimiz kimi rəvan getmir”





### Azərbaycan və Qazaxıstan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

**Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev mətbuata bəyanatlarla çıxış ediblər.**

Əvvəlcə Qazaxıstan Prezidenti bəyanatla çıxış edib.

**Prezident Kasım-Jomart Tokayevin bəyanatı**

*- Hörmətli İlham Heydər oğlu.*

*Hörmətli xanımlar və cənablar.*

Mən bu gün aparılmış tamformatlı danışıqların nəticələrini yüksək qiymətləndirirəm. Bu danışıqlar hər ikimizin ikitərəfli əlaqələri hər vasitə ilə möhkəmləndirmək əzmində olduğumuzu bir daha təsdiq etdi. Hörmətli İlham Heydər oğlu ilə səmimi şəraitdə əməkdaşlığımızın bütün aspektlərinə dair fikir mübadiləsi apardıq, necə deyərlər, regional və beynəlxalq problemlər barəsində saatlarımızı tutuşdurduq, iki ölkənin qarşılıqlı əlaqələrinin perspektivlərini və daha da dərinləşdirilməsi istiqamətlərini müzakirə etdik.

Bizim ortaq səylərimiz sayəsində son illərdə Qazaxıstan ilə Azərbaycan arasında münasibətlər daha açıq və hərtərəfli xarakter kəsb edib. Siyasi, ticari-iqtisadi, mədəni-humanitar əməkdaşlıq fəallaşıb. Yarım ildən bir qədər çox əvvəl biz strateji tərəfdaşlığın dərinləşdirilməsi və müttəfiqlik münasibətlərinin genişləndirilməsinə dair Bəyannamə, 2022-2026-cı illər üçün əməkdaşlığın inkişafına dair kompleks proqram və bir sıra başqa sənədlər imzaladıq. Hazırda bütün bu razılaşmalar ardıcıl olaraq həyata keçirilir. İkitərəfli münasibətlərin kompleks şəkildə möhkəmlənməsinə xidmət edən Ali Dövlətlərarası Şuranın təsis edilməsi mühüm qərar oldu. Bu gün imzalanmış bir sıra yeni sazişlər bizim çoxşaxəli tərəfdaşlığımıza əlavə impuls verəcək.

Biz iqtisadiyyatlarımızın yeni artım nöqtələri ola biləcək mütərəqqi investisiya layihələrinin reallaşdırılması üzərində ayrıca dayandıq. Sənaye, toxuculuq, aqrosənaye və tikinti sahələrində iri müştərək müəssisələr açılması mümkündür. Biz iki ölkənin hökumətlərinə birgə həyata keçirilməsi üçün iri layihələrin müəyyən edilməsi barədə tapşırıq verdik. Kənd təsərrüfatı sahəsində qarşılıqlı faydalı əməkdaşlıq üçün çox böyük potensial var. Ötən ilin yekunlarına görə aqrar-sənaye kompleksi məhsullarının ikitərəfli ticarətinin həcmi üç dəfə artıb və 146 milyon dollara bərabər olub. Beləliklə, bu gün bizim ümumi əmtəə dövriyyəmizin üçdəbir hissəsindən çoxu kənd təsərrüfatının payına düşür. Biz kənd təsərrüfatı məhsullarının qarşılıqlı tədarükünü daha da artırmağın vacibliyini qeyd etdik.

İnformasiya texnologiyaları sahəsində kooperasiyanın gücləndirilməsi perspektivli sahə kimi müəyyən edildi. Hazırda Xəzərin dibi ilə optik-lifli rabitə xətti çəkilməsi üzrə fəal iş aparılır. Biz bu layihənin strateji əhəmiyyətini nəzərə alaraq onun vaxtında icrasını təmin etmək barədə tapşırıq verdik. Bununla yanaşı, azərbaycanlı tərəfdaşlarımız dövlət xidmətlərinin rəqəmsallaşdırılması sahəsində birgə layihələrin reallaşdırılmasına, habelə Qazaxıstandakı IT-startapların məkanlarından istifadə etməyə dəvət olunurlar.

İki ölkənin gəncləri arasında təmaslar da bizim humanitar əlaqələrin möhkəmlənməsinə şərait yaradır. Biz gənclər siyasəti və təhsil sahəsində əməkdaşlığın inkişafı üçün tərəflərin atdığı addımları alqışladıq. Müvafiq nazirliklərə akademik mobilliyin təmin olunmasına, birgə təhsil və elmi layihələrin təşkilinə maksimum kömək etmələri barədə tapşırıq verilib.

Media sahəsində qarşılıqlı fəaliyyət, kontent mübadiləsi qardaş xalqlarının daha da yaxınlaşmasına sanballı töhfə verə bilər. Bu gün müvafiq sazişlər imzalandı. Ona görə də danışıqların gedişində Qazaxıstan telekanallarının Azərbaycan kabel operatorları şəbəkələrində yayımlanmasına, habelə animasiya filmlərinin distribusiyasına dair razılaşmaların reallaşdırılmasının vacibliyi qeyd edilib.

Bu gün beynəlxalq gündəliyin aktual məsələlərinə dair fikir mübadiləsi aparılıb. Qazaxıstan və Azərbaycan müxtəlif çoxtərəfli strukturlar çərçivəsində səmərəli qarşılıqlı fəaliyyət göstərir, bir sıra aktual beynəlxalq və regional məsələlərdə oxşar mövqelər tuturlar. Bu baxımdan qeyd etmək istəyirəm ki, Qazaxıstan ənənəvi olaraq Azərbaycan ilə Ermənistan arasında qarşılıqlı münasibətlərin diplomatik yollarla nizamlanmasının tərəfdarıdır, habelə tezliklə sülh müqaviləsi bağlanmasına dair səyləri alqışlayır. Bütövlükdə regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi üçün qarşılıqlı dəstəyin davam etdirilməsinin və birgə tədbirlər görülməsinin zəruriliyi eyni qaydada anlaşılır.

Gördüyünüz kimi, müzakirə edilən məsələlərin dairəsi çox geniş olub. Azərbaycan Prezidentinin səfərinə görə ona bir daha səmimi minnətdarlığımı bildirmək istəyirəm. Bu səfər ölkələrimiz arasında qarşılıqlı münasibətlərin, əməkdaşlığın inkişaf etdirilməsinin uğurla davamı üçün həqiqətən çox böyük əhəmiyyət kəsb edir. Azərbaycan ilə əməkdaşlıq Qazaxıstan üçün prioritet məsələ olub və olacaq. Biz bu əməkdaşlığı konkret məzmunla, konkret razılaşmalarla zənginləşdirmək üçün nə mümkündürsə edəcəyik. Diqqətinizə görə sağ olun.

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış edib.

**Prezident İlham Əliyevin bəyanatı**

*-Hörmətli Kasım-Jomart Kemeleviç.*

*Əziz dostlar.*

Mən, ilk növbədə, qonaqpərvərliyə və dəvətə görə Qazaxıstan Prezidentinə təşəkkürümü bildirmək istərdim. Mən Qazaxıstanda özümü evdə olduğum kimi hiss edirəm, burada tez-tez oluram. İlk növbədə, Qazaxıstan Prezidentini həyatın bütün sahələrini əhatə edən islahatların uğurla reallaşdırılması münasibətilə təbrik etmək və qardaş ölkənin inkişafı işində yeni uğurlar arzulamaq istərdim.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə hörmətə görə öz adımdan və bütün Azərbaycan xalqı adından təşəkkürümü bildirmək istərdim. Prezident Tokayevin qeyd etdiyi kimi, bu gün biz Astananın mərkəzində Heydər Əliyevin adını daşıyacaq küçənin birgə açılışını edəcəyik. Biz bunu həm bizim Ulu Öndərin xatirəsinə, həm də bütün Azərbaycan xalqına hörmətin, dostluğun, qardaşlığın əlaməti kimi qiymətləndiririk.

Mən, həmçinin Qazaxıstan Prezidentinin işğaldan azad edilmiş Füzuli şəhərində qazax xalqının böyük oğlu Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin yaradılması təşəbbüsünə görə təşəkkürümü bildirmək istərdim. Mərkəzin tikintisi artıq başlanıb. Bu, Qazaxıstanın Azərbaycana hədiyyəsidir, Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq. Xüsusən indi - biz 30 illik işğaldan sonra 10 min kvadratkilometrdən artıq ərazinin praktiki olaraq sıfırdan başlayaraq bərpa etməli olduğumuz vaxtda.

Kasım-Jomart Kemeleviçin dediyi kimi, biz bu gün münasibətlərimizin geniş gündəliyini ətraflı müzakirə etdik. Qazaxıstan Prezidenti bu gün müzakirələr çərçivəsində toxunulmuş mövzular üzərində ətraflı dayandı. Təkrarlamaq istəmirəm, bu barədə yalnız bir neçə məqamı şərh etmək istərdim. Biz həqiqətən ölkələrimiz arasında çoxşaxəli əməkdaşlığı dərinləşdirmək və genişləndirmək əzmindəyik.

Keçən ilin avqust ayında Qazaxıstan Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı Müttəfiqlik qarşılıqlı əlaqələrinin və strateji tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsi haqqında Bəyannamə imzalandı. Bugünkü Bəyannamə də əlaqələrimizin və müttəfiqlik münasibətlərinin möhkəmlənməsinə yönəlib. Bu bəyannamələrin adlarının özü bizim münasibətlərimizin xarakterinə dəlalət edir. Bu, müttəfiqlər arasında münasibətlərdir. Təbii ki, bunun əsasını ölkələrimizin qardaş xalqları arasında çoxəsrlik tarixə malik olan qarşılıqlı əlaqələr, dostluq və əməkdaşlıq təşkil edir. Bu, bugünkü qarşılıqlı əlaqələrimizin əsas bazasıdır. Qazaxıstan ilə qardaşlıq münasibətləri əcdadlarımızın göstərişi, eləcə də həyati zərurətdir. Çünki Xəzər regionunda, Mərkəzi Asiya və Cənubi Qafqaz regionunda baş verən proseslər bizə regional təhlükəsizliklə bağlı məsələlərdən başlamış nəqliyyat, logistika, energetika, humanitar əməkdaşlıq, ekologiya ilə bağlı məsələlərə qədər bütün istiqamətlər üzrə əməkdaşlığı möhkəmlətməyi diktə edir. Xüsusən ona görə ki, təəssüflər olsun, Xəzərin həm sizə, həm də bizə aid olan sahillərində dənizin sürətlə dayazlaşmasını müşahidə edirik.

Beləliklə, ölkələrimiz arasında müttəfiqlik münasibətləri bizim qarşılıqlı fəaliyyətimizin gələcək inkişafının möhkəm təməlidir. Bu gün biz bu təməli konkret məzmunla zənginləşdiririk və ötən ilin avqust ayında Bakıda qəbul edilmiş qərarlar bu gün artıq reallaşır. O cümlədən, Prezident Tokayevin qeyd etdiyi kimi, Qazaxıstan neftinin Azərbaycandan keçməklə tranzitinin başlanması, Orta Dəhlizin imkanlarını tam həcmdə səfərbər etmək üçün ölkələrimizin nəqliyyat-logistika infrastrukturlarının birləşdirilməsi üzrə ciddi işin başlanması barədə qərarlar.

Bu gün biz Şərq-Qərb marşrutu üzrə yükdaşımaların artırılması ilə bağlı konkret rəqəmləri, konkret qrafiki müzakirə etdik və bütün bu məsələlərin ən yaxın vaxtda öyrənilməsi üçün müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verdik.

Biz həm də sənaye kooperasiyası, ixrac-idxal əməliyyatlarının nomenklaturunun genişləndirilməsi ilə bağlı məsələləri, o cümlədən gələcəkdə ixrac-idxal potensialının reallaşdırılması üçün sifarişlərin yerləşdirilməsi məsələlərini fəal müzakirə etdik. Təbii ki, biz bir-birimizin infrastrukturunu, bir-birimizin sənaye potensialını bir-birimizə tədarük edə biləcəyimiz mallar hesabına tamamlamalıyıq, beləliklə, əmtəə dövriyyəsini artırmalıyıq. Bu gün bizim ortamüddətli perspektivli əmtəə dövriyyəsini milyard dollara çatdırmaq barədə rəqəmlər səsləndi. Mən hesab edirəm ki, xüsusən bizim əldə etdiyimiz razılaşmalar çərçivəsində, bu, tamamilə realdır. Fikrimcə, biz bu həddə kifayət qədər qısa müddətdə çatacağıq. Əsas odur ki, əməkdaşlığı möhkəmlətmək üçün çox müsbət ortaq əhvali-ruhiyyə var.

Onu da qeyd etmək istərdim ki, biz beynəlxalq təşkilatlar çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayırıq, bütün məsələlərə dair bir-birimizi həmişə dəstəkləyirik və dəstəkləyəcəyik. Biz həm də, xüsusən ölkələrimizdən birinin üzv olduğu təşkilatlarda bir-birimizi dəstəkləyəcəyik. Bu, uzun illər boyu bizim münasibətlərin səmimi xarakterini nümayiş etdirir.

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması məsələsində Qazaxıstanın mövqeyinə görə Prezident Tokayevə təşəkkür edirəm. Mən normallaşmaya dair danışıqlar prosesinin indiki statusu barədə həmkarıma məlumat vermişəm. Biz normallaşma əzmindəyik və İkinci Qarabağ müharibəsi başa çatandan sonra məhz Azərbaycan sülh müqaviləsi üzərində işə başlamağı təklif etdi. Praktiki olaraq bu iş başlanıb, amma bizim istədiyimiz kimi rəvan getmir. Lakin bunun alternativi yoxdur. Hətta 30 illik işğala və Azərbaycan xalqının məruz qaldığı məhrumiyyətlərə, hazırda bərpa etməli olduğumuz dağıntılara baxmayaraq, qonşular arasında münasibətlər normal olmalıdır. Bununla belə, biz gələcəyə baxırıq və hesab edirik ki, suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, BMT-nin Nizamnaməsi, beynəlxalq hüququn bütün əsas normaları və prinsipləri əsasında sülh müqaviləsinə nail olmaq mümkündür, bu müqavilə çoxillik düşmənçilik səhifəsini çevirəcək.

Əlbəttə, Qazaxıstanın məhz bizim regionda sülhün bərqərar olunmasına yönəlmiş prinsipial mövqeyi böyük hörmətə layiqdir. Qazaxıstanın beynəlxalq arenada nüfuzunu, ən mühüm qlobal məsələlərə dair ölçülüb-biçilmiş, prinsipial mövqeyini xüsusi qeyd etmək istərdim. Biz artıq beynəlxalq təhlükəsizliklə bağlı məsələlərə dair fikir mübadiləsi aparmışıq və bu gün hələ bu barədə diskussiyaları davam etdirəcəyik. Bu məsələlər daimi diqqət, prinsipial, dəqiq və ölçülüb-biçilmiş mövqe tələb edir. Bu halda qazaxıstanlı qardaşlarımızı təbrik etmək istərdim ki, ölkənin beynəlxalq arenada nüfuzu artır və Qazaxıstan haqlı olaraq dünya birliyinin böyük hörmətini qazanıb.

Öz tərəfimdən bir daha demək istərdim ki, Azərbaycanda sizin qardaşlarınız yaşayır, onlar sizə çox hörmət edir, sizi qiymətləndirirlər. Qazaxıstanın bizə münasibətdə əvvəllər də, bu gün də nümayiş etdirdiyi həmrəyliyə görə sizə çox təşəkkür edirik. Biz də öz tərəfimizdən qardaş Qazaxıstan xalqına həqiqi qardaşlıq hisslərini və münasibəti göstərmək üçün nə mümkündürsə edəcəyik.

Hörmətli Kasım-Jomart Kemeleviç, qonaqpərvərliyə, dəvətə görə bir daha təşəkkür edirəm və fürsətdən istifadə edib Sizi yenidən, Sizin üçün münasib vaxta Azərbaycana səfərə dəvət etmək istəyirəm.

**Prezident Kasım-Jomart Tokayev:** Təşəkkür edirəm. Xalqlarımız arasında qardaşcasına qarşılıqlı münasibətlərlə bağlı sözlərinizə görə Sizə xüsusi təşəkkür etmək istərdim. Qazax xalqı üçün də azərbaycanlılar qardaşdır. Bu barədə bu gün danışıqlar zamanı da demişəm, indi də deyirəm. Bu, sadəcə, bəlağətli sözlər deyil, hərçənd xüsusən belə tədbirlər zamanı hərdənbir bəlağətli sözlər də demək lazımdır. Bu sözlər, əslində, ölkələrimiz arasında əməkdaşlığın xarakterini əks etdirir. Ümidvaram ki, bütün bunlar daimi olacaq.

**Dünən Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi olub.**



# Azərbaycan-Qazaxıstan sənədləri imzalanıb

## İki ölkə arasında Ali Dövlətlərarası Şurası yaradılacaq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ”Azərbaycan Respublikası və Qazaxıstan Respublikası Ali Dövlətlərarası Şurasının yaradılması haqqında Protokolu” və dövlət başçılarının birgə bəyanatını imzalayıblar.

”Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC ilə ”Qazaxıstan Respublikası Prezidentinin Teleradiokompleksi” Qeyri-Kommersiya Səhmdar Cəmiyyəti arasında qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Memorandum”u AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev və ”Qazaxıstan Respublikası Prezidentinin Teleradiokompleksi” Qeyri-Kommersiya Səhmdar Cəmiyyətinin baş direktoru Rauşan Kajibayeva imzalayıblar.

”Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə Qazaxıstanın Tətbiqi Etnosiyasi Araşdırmalar İnstitutu arasında elmi və mədəni əməkdaşlıq haqqında Memorandum”u Azərbaycan Respublikasının Qazaxıstan Respublikasındakı səfiri Ağalar Atamoğlanov və Qazaxıstanın Tətbiqi Etnosiyasi Araşdırmalar İnstitutunun direktoru Talqat Kaliyev imzalayılbar.

”Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Qazaxıstanın Xarici Ticarət Palatası arasında Anlaşma Memorandumu”nu Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov və Qazaxıstanın Xarici Ticarət Palatasının İdarə Heyətinin sədri Ayan Yerenov imzalayıblar.

”Azərbaycan Milli Elmlər Akademiyası və Qazaxıstan Respublikasının Milli Elmlər Akademiyası arasında elm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli və ”Qazaxıstan Respublikasının Milli Elmlər Akademiyası” Respublika İctimai Birliyinin prezidenti Murat Jurinov imzalayıblar.

”Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi ilə Qazaxıstan Respublikasının ”Otandastar Fondu” arasında Anlaşma Memorandumu”nu Azərbaycan Respublikasının Qazaxıstan Respublikasındakı səfiri Ağalar Atamoğlanov və Qazaxıstan Respublikasının ”Otandastar Fondu”nun prezidenti Abzal Saparbekulı imzalayıblar.

”Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Qazaxıstan Respublikasının İnformasiya və İctimai İnkişaf Nazirliyi arasında anlaşma və əməkdaşlıq haqqında Memorandum”u Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov və Qazaxıstan Respublikasının informasiya və ictimai inkişaf naziri Darxan Kıdırali imzalayıblar.

# Qazaxıstanda Heydər Əliyev haqqında sənədli film çəkilib



**”Qazaxıstanda Azərbaycanın görkəmli dövlət xadimi Heydər Əliyev haqqında sənədli film çəkilib”.**

”Report” ”Kazinform”a istinadən xəbər verir ki, bunu Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bildirib.

”Bu gün Heydər Əliyev haqqında çəkilmiş ”Görkəmli ömür” adlı sənədli filmin premyerası olacaq. Bu film bizim tapşırığımızla ”Qazaxıstan” Teleradio Korporasiyası tərəfindən çəkilib”, - Tokayev Azərbaycan Prezidenti İlham Əliyev ilə geniş tərkibdə danışıqlar zamanı deyib.

Qazaxıstan Prezidenti ölkələrimiz arasında səmimi dostluğun və qarşılıqlı dəstəyin daha bir bariz sübutu kimi Füzuli şəhərində uşaqlar üçün Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin tikilməsini göstərib və bunun qazax xalqının adından Azərbaycana hədiyyə olduğunu bildirib.

”Mənə məlumat verildi ki, bu mərkəzin tikintisi kifayət qədər sürətlə aparılır. Düşünürəm ki, çox yaxın zamanda bu mühüm obyektin istifadəyə verilməsinin şahidi olacağıq. Biz humanitar əlaqələri hərtərəfli inkişaf etdirmək və ümumi mənəvi dəyərlər xəzinəsini zənginləşdirmək əzmindəyik”, - Qazaxıstan Prezidenti əlavə edib.

# Azərbaycanda hər 10 maşından 8-nin yaşı 10 ildən çoxdur



**”Hazırda Azərbaycanda olan hər 10 avtomobildən 8-nin yaşı 10 ildən çoxdur”.**

Bakupost.az xəbər verir ki, bu barədə iqtisadçı-ekspert Samir Əliyev məlumat paylaşıb.

Nazirlər Kabinetinin 94 saylı qərarı ilə aprelin 28-dən etibarən yaşı 10 ildən çox olan minik avtomobillərinin Azərbaycan ərazisinə gətirilməsinin qadağan ediləcəyini xatırladan ekspert ölkədəki avtomobil parkının yaşının ilbəil artdığını vurğulayıb: ”Bu qərar istər-istəməz diqqəti ölkədə avtomobil parkının yaşına yönəldir. Məlum olur ki, yaşı 10-dan çox olan maşınların sayı və payı sürətlə artır. Xüsusilə də devalvasiya bu prosesə öz təhfəsini verib.

Məsələn, 2014-cü ildə minik maşınlarının 62%-nin yaşı 10 ildən çox olduğu halda, 2021-ci ildə 80,2%-ə, 2022-ci ildə 83,1%-ə yüksəlib. Yaşı 5 ildən az olan maşınların payı isə 17%-dən 4,7%-ə düşüb. Təsəvvür edin ki, devalvasiyadan əvvəl hər 6-cı maşın yeni olduğu halda, 2021-ci ildə hər 21-ci maşın yeni olub. Hər 10 maşından 8-nin isə yaşı 10 ildən çoxdur. Avtobuslarda və yük maşınlarında vəziyyət daha acınacaqlıdır”.

# Gərginlik azalır

## Azərbaycan və İran arasında məsləhətləşmələr davam etdiriləcək



### Tofiq Zülfüqarov: "İki ölkə qonşu olaraq münasibətləri davam etdirməyə məcburdur. Çünki gərginlik heç kəsə xeyir gətirmir"

**Azərbaycan və İran arasında davam edən gərginlik fonunda iki ölkə rəsmisinin təmasları olub. Aprelin 7 və 8-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian arasında telefon danışığı baş tutub. Danışıq zamanı iki ölkə arasında mövcud olan narazılıq və anlaşılmazlıqlarla bağlı müzakirə aparılıb.**

Anlaşılmazlıqların aradan qaldırılması üçün danışıqların davam etdirilməsinin vacibliyi vurğulanıb. Tərəflər qarşılıqlı şəkildə hər iki ölkənin ərazi bütövlüyü və suverenliyinə hörmətlə yanaşdıqlarını bildiriblər. C.Bayramov Azərbaycanın milli maraqlarına əsasən həyata keçirdiyi müstəqil xarici siyasətinə və region ölkələri ilə ikitərəfli münasibətlərinə hörmətlə yanaşılmasının vacib olduğunu diqqətə çatdırıb. Azərbaycanla İran arasında mövcud olan layihələrin icrası istiqamətində iş aparılmasına dair razılıq ifadə olunub. Nazirlər qarşılıqlı təmasların davam etdirilməsinin vacib olduğunu qeyd ediblər. Qeyd edək ki, XİN başçılarının görüşü Türkiyə və İran Prezidentləri Rəcəb Tayyib Ərdoğanla İbrahim Rəisi arasında telefon danışığından sonraya təsadüf edir. İran Xarici İşlər Nazirliyinin rəsmisi Nasir Kənani deyib ki, Tehran Azərbaycan və İran xarici işlər nazirləri arasında son telefon danışığını müsbət qiymətləndirir. Kənani Azərbaycanın 4 İran diplomatını "persona non-qrata" elan etməsini tələsik addım adlandırıb: "İran regionda qonşu ölkə kimi Azərbaycanla münasibətlərinə önəm verir. Həmişə siyasi dialoqun zəruriliyini vurğulayır və pərdə arxasında mübahisəli məsələlərdən qaçmağa üstünlük verir. Gərginliyə baxmayaraq, Tehran anlaşılmazlıqları dialoq yolu ilə həll etməyə çalışır".

**Azərbaycan bütün qonşu ölkələrlə, o cümlədən İranla hər zaman qonşuluq münasibətlərinin inkişafında maraqlı olub. Dövlətlərin ərazi bütövlüyü və suverenliyinə qarşılıqlı əsasda hörmət Azərbaycanın xarici siyasətinin dəyişməz prioritetidir.**

*Bu fikirləri də Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə İranın Xarici İşlər Nazirliyinin mətbuat katibi Nasir Kənaninin aprelin 10-da verdiyi şərhlə bağlı yerli medianın sualını cavablandırarkən deyib.*

Mətbuat katibi qeyd edib ki, bu xüsusda, Azərbaycan tərəfi ölkəmizin milli mənafeyi və milli təhlükəsizliyinin təmin olunması üçün səylərini davam etdirir.

"Azərbaycan tərəfi bu danışıqları müsbət qiymətləndirir və məsləhətləşmələrin davam etdirilməsini vacib hesab edir", - deyə Ayxan Hacızadə vurğulayıb.

Ekspertlər tərəflərin müzakirələrə başlamasını Azərbaycan-İran arasında "buzların əriməsi" kimi dəyərləndiriblər. Onların fikrincə, telefon danışığı Azərbaycanın adekvat addımlarının nəticə verdiyini göstərir. Təbii ki, münasibətlərin həddindən ziyadə gərgin olması nə Azərbaycanın, nə də İranın maraqlarına cavab verir. Ancaq münasibətlərin gərginlik mərhələsindən çıxması üçün ilk addımları məhz Tehran atmalıdır.

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Şərq"ə açıqlamasında bildirib ki, tərəflərin mövcud gərginliyi azaltmağa çalışması normal diplomatik praktikadır. Keçmiş XİN başçısı vurğulayıb ki, gərginliyin əsasında bir neçə məsələ var:** "Gərginliyin səbəbkarı İran tərəfidir. Bəllidir ki, diplomatik və siyasi həmlələr nəticə vermir və verə də bilməz. Azərbaycan xüsusən 44 günlük müharibədən sonra siyasi arenada müzəffər ölkə kimi çıxış edir. O baxımdan İranın bu cür davranışını və təhdidlərini qəbul etmir. İki ölkə qonşu olaraq münasibətləri davam etdirməyə məcburdur. Çünki gərginlik heç kəsə xeyir gətirmir. Azərbaycanın İranla çox geniş ticarəti, iqtisadi münasibətləri mövcuddur. Humanitar baxımdan da gediş-gəliş çoxdur. Xarici işlər nazirlərinin iki ölkə arasındakı gərginliyi müzakirə etməsi normal haldır. Tərəflərin danışıqları nəticəsində bəlli olacaq ki, İranı narahat edən məsələlər nədir? İndiyədək Tehranın narazılığının səbəblərini heç kim başa düşə bilmir. Məsələn, Azərbaycan tərəfinin narazılığı odur ki, İran Ermənistanla bizim ölkəmizə qarşı münasibətlər qurur. Rəsmi Bakı bunu qəbul etmir və narazılığını açıq ifadə edir".

T.Zülfüqarov vurğulayıb ki, Azərbaycan istənilən dövlətlə, o cümlədən İsraillə əlaqə qura bilər: "Amma bu, heç də o demək deyil ki, Azərbaycan-İsrail münasibətləri birbaşa İrana qarşıdır. Azərbaycan bir çox sahədə İsraillə əməkdaşlıq edir və bunun da çox yaxşı nəticələri var. Hesab edirəm ki, mövzuların geniş şəkildə müzakirəsi gərginliyin aradan qaldırılmasının yollarını müəyyənləşdirəcək. Siyasətçilərin fikrincə, mətbuatda iki ölkənin bir-biri əleyhinə davamlı yazıları konstruktiv deyil. Baxaq, görək, müzakirələrin nəticələri nə olacaq".

**İsmayıl Qocayev**



# Fazil Mustafa mübarizənin ön sıralarına qayıdır

## "Bundan sonra düşmənlərim üçün çox ağır olacaq"

**"Əziz dostlar! Səhhətimdə xeyli irəliləyiş var, inşallah, bir neçə günə xəstəxanadan çıxıb müalicəmi evdə aparacağam". Bu sözləri martın 28-də yaşadığı evin qarşısında silahlı hücuma məruz qalaraq ciddi yaralanmış millət vəkili, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa sosial şəbəkə hesabından yazıb.**

*"Canımızda azacıq ölüm qorxusu vardı, şükür ki, onu da yoxa çıxartdınız"*

Hələlik müalicəsini xəstəxanada davam etdirən deputat namaza və oruca fiziki imkanlarının yol vermədiyini bildirib: "İnşallah, ümid edirəm ki, bunu da uyğun şərtlərdə bərpa edəcəyəm. Bazar ertəsi köməkçilərimə tapşırıq verdim ki, hər həftə olduğu kimi Bakıxanov qəsəbəsindəki ofisimdə seçiciləri qəbul etsinlər və tədbir görmək üçün müraciətlərini mənə çatdırsınlar. Artıq gələn həftədən başlayaraq evdən seçicilərin onlayn qəbulunu da keçirməyi nəzərdə tuturam. Şəraitə uyğunlaşmaq lazımdır. Solaxay olmağım bu məqamda işimə yaradı. Fürsət tapdıqca yeni kitabım üzərində xeyli işlədim".

Millət vəkili yayda Berlində keçiriləcək Ümumdünya Xüsusi Olimpiya oyunlarında iştirakını təxirə saldığını təəssüflə vurğulayıb: "Azərbaycan Xüsusi Olimpiya Komitəsinin prezidenti olaraq komandamızın uğur qazanacağına inanıram, ruhən onlarla birlikdə olacağam. Milli düşmənlərimizə gəldikdə isə bilsinlər ki, mübarizə bu gün də var, sabah da olacaq. Mən də onun ən ön sıralarında! Bu Vətən, bu dövlət, bu millət əmanətimizdir. Canımızda azacıq ölüm qorxusu vardı, şükür ki, onu da yoxa çıxartdınız. Bundan sonrası sizlərə çox ağır olacaq! Bu mübarizədə fədakarcasına borcunu yerinə yetirən qardaş-bacılarımızın həmişəkindən daha güclü əzmlə yanındayam!".

**İsmayıl**



# Paşinyan anti-Azərbaycan siyasətinə iki qurumu daxil etməyə çalışır

## KTMT hərbçilərinin Ermənistanla sərhəddə yerləşməsi Avropa İttifaqı ilə Ermənistan arasında münasibətləri kəskinləşdirəcək

**"Avropa İttifaqının "mülki missiyası" Ermənistanın arzularını reallaşdırmır". Bu barədə "Şərq"ə Milli Cəbhə Partiyasının sədr müavini, siyasi ekspert Məhəmməd Əsədullazadə deyib. Politoloq bildirib ki, Ermənistan Baş naziri Nikol Paşinyan Avropa İttifaqının yarım hərbi müşahidə missiyasını dəvət edərək, Azərbaycanla sərhəddə prosesləri lehinə dəyişəcəyini hesablayırdı:**

"Paşinyan bununla müşahidə missiyasının Azərbaycan əleyhinə hesabatlar hazırlayacağı, Brüsselin Bakıya qarşı təzyiqləri artıracağını gözləyirdi. Amma Avropa İttifaqının müşahidə missiyası Ermənistanın "arzularını" doğrultmadı. Azərbaycan Ermənistanla şərti sərhəddə yenidən əlverişli yüksəkliklərdə yerləşməklə İrəvanın Avropa İttifaqından gözləntilərinə son qoydu. Ümumiyyətlə, Avropa İttifaqı da Azərbaycanla münasibətləri kəskinləşdirməyi planlaşdırmır. Missiya tərkibində Fransanın destruktiv mövqeyi İrəvanı cəsarətləndirmişdi. Avropa İttifaqının müşahidə missiyası Azərbaycanla şərti sərhəddən bir neçə kilometr aralıda patrul xidməti aparır. Bu da Avropa İttifaqının tərəflər arasında problemin bir hissəsi olmamaq siyasətinin tərkib hissəsidir. Brüssel iki dövlət arasında vasitəçi missiyasında maraqlıdırsa, obyektiv mövqe ortaya qoymaqla, beynəlxalq hüququ rəhbər tutaraq tərəf seçməməlidir".

Ekspertin sözlərinə görə, istəyi həyata keçməyən Ermənistan rəhbərliyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının hərbçilərini Azərbaycanla şərti sərhəddə yerləşdirmək üçün danışıqlara getdi: "Göründüyü kimi, iki stulda oturmağa çalışan Paşinyan anti-Azərbaycan siyasətinə iki qurumu daxil etməyə çalışır. Bu da İrəvanın sülh müqaviləsində maraqlı olmadığını göstərir. KTMT hərbçilərinin Ermənistanla sərhəddə yerləşməsi Avropa İttifaqı ilə Ermənistan arasında münasibətləri kəskinləşdirəcək".

**İsmayıl**

# Növbəti təxribat planı işə düşür

## Ermənistan itkin düşən əsgərlərimizi "kəşfiyyatçı" kimi təqdim etməyə çalışır



**Ermənistan Müdafiə Nazirliyi Ordumuzun itkin düşən əsgərlərindən birinin saxlanılması ilə bağlı məlumat yayıb. Erməni tərəfi iddia edib ki, Azərbaycan Ordusunun əsgəri Zəngəzur (Sünik) vilayətinin Bnunis kəndinin yaxınlığında saxlanılıb.**

Kəndin rəhbəri Qor Ovannisyan deyib ki, azərbaycanlı əsgər kənd sakinlərindən birinin qapısını döyüb: "Qapını açan qadın dərhal hüquq-mühafizə orqanlarına müraciət edib". Qeyd edək ki, ermənilərin yaydığı videoda "azərbaycanlı əsgər" olduğu bildirilən və "hərbi formada" təqdim edilən gəncin əynində hərbi forma yoxdur. Azərbaycanlının əsgər formasında olmamasına ermənilər bu cür izah verib: "Əsgər evlərdən birinə girib, çörək yeyib, həmin adamların evində paltar dəyişib, ev sahibinin pencəyini geyinib və gedib kənd dükanının qabağında oturub kart oynamağa başlayıb. Mağazanın yaxınlığında toplaşan kişilər isə onun nə erməni, nə də rus olduqlarını anlayıblar". Göründüyü kimi, Ermənistan tərəfi bir-birinə zidd açıqlamalar verib. Hətta "ələ keçirdikləri" azərbaycanlı əsgərin "kəşfiyyatçı" olduğu da iddia olunub. Xatırladaq ki, Azərbaycan MN Naxçıvan Muxtar Respublikasında iki hərbi qulluqçunun itkin düşdüyü haqda məlumat yayıb.

**Siyasi şərhçi Asif Nərimanlı bildirib ki, Ermənistan mediası saxlanıldığı iddia etdikləri azərbaycanlı əsgərləri "kəşfiyyatçı" kimi təqdim etməyə çalışır. Halbuki onların kənd sakinləri tərəfindən saxlanıldığı deyilir:** "Kəşfiyyatçı olsaydılar nəinki Zəngəzurdakı ermənilər, İrəvandakılar da gəlsəydi, mümkün olmazdı. Lakin Ermənistanın itkin düşən əsgərlərimizi "kəşfiyyatçı" kimi təqdim edərək, Azərbaycanın "təxribat planı" iddiaları üzərindən hərəkət edə biləcəkləri istisna deyil. Avropa İttifaqı missiyasını bölgəyə gətirəndən sonra İrəvan avropalılara "Azərbaycanın hücumu"nu nümayiş etdirmək üçün fürsət axtarırlar. Bu məsələdən də istifadə edə bilərlər. Azərbaycan tərəfinin rəsmi açıqlaması olmadığı müddətdə nəsə demək çətindir. Ən maraqlısı və gülüncü isə azərbaycanlı əsgərin erməninin evinə getdiyi, yemək yediyi, daha sonra kənd mağazasının qarşısında yaşlı ermənilərlə bir əl kart oynadığı iddiasıdır. Bircə kart oyununda bizim əsgərin, yoxsa ermənilərin qalib gəldiyini yazmayıblar".

**İsmayıl Qocayev**



# Növbəti hədəf diplomatlarımızdır

## Təzyiqlər davam edərsə, İran beynəlxalq məhkəməyə verilməlidir

**Son günlər İranın molla rejimi Azərbaycanın Təbrizdəki konsulluğu qarşısında etiraz aksiyaları təşkil etməkdədir. Xatırladaq ki, bir müddət qabaq keçirilən "aksiyada" Azərbaycanın İsraildə səfirliyinin fəaliyyətə başlamasına etiraz bildirilmişdi. SEPAH-ın dəstəyi ilə yaranan "Hüseyniyyun" terror qruplaşmasının üzvləri "bayraqlarını" konsulluğumuzun qarşısına sərmişdilər.**

Qruplaşma bəyan etmişdi ki, "əgər Azərbaycan konsulluğu MOSSAD-ın nümayəndəliyi olacaqsa, hüseynçilər buna imkan verməyəcək". "Hüseyniyyun" terror qruplaşmasının Təbrizdəki konsulluğumuzun qarşısında növbəti aksiya təşkil edəcəkləri ilə bağlı xəbərlər yayılıb. Məlumata əsasən, aksiyada tələb "diplomatlarımızın Təbrizi tərk etməsi" olacaq. Narahatedici məqam ondan ibarətdir ki, belə "aksiyaların" təşkili gərgin vəziyyətin daha qorxulu hal almasına, Tehrandakı səfirliyimizə edilən hücuma bənzər olayların təkrarına gətirib çıxara bilər. Ekspertlərə görə, Azərbaycan tərəfinin öz statuslarına uyğun fəaliyyət göstərməyən iranlı diplomatları ölkədən çıxarmasına qarşı Tehranın cavab verəcəyi gözləniləndir.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə bildirib ki, İranın molla rejimi qoşulduğu heç bir beynəlxalq konvensiyaya əməl etmir. Professorun sözlərinə görə, hansısa bir ölkəyə etiraz bildirməyin öz forması, həddi-hüdudu var:** "Yanvarın 27-də Tehrandakı səfirliyimizə hücumdan və ardınca baş verənlərdən sonra Azərbaycan tərəfi səfirliyin fəaliyyətini müvəqqəti dayandırdı. Amma Təbrizdəki konsulluğumuz fəaliyyətini davam etdirir. "Hüseyniyyun" terror qruplaşmasının konsulluq qarşısında aksiya keçirmək cəhdləri birbaşa İranın dövlət orqanları ilə bağlı məsələdir. Rejim lazım bildiyi məqamlarda belə "aksiyalar" təşkil edirlər. Əlbəttə, narahatlıq var. Beynəlxalq hüququn normalarının kobud şəkildə pozulması faktı ilə yanaşı, Təbrizdəki konsulluq əməkdaşları və onların ailələri üçün də narahat oluruq. Görünən odur ki, növbəti hədəf diplomatlarımızdır. Əgər diplomatlarımıza qarşı növbəti hər hansı hadisə baş verərsə, təzyiqlər davam edərsə, İran beynəlxalq məhkəməyə verilməlidir".

**C.Nuriyev vurğulayıb ki, Tehran rejiminin İsrail məsələsində rəsmi Bakıya irad bildirməsi yersiz və yolverilməzdir:** "İran niyə, hansı haqla İsraildə səfirliyimizin açılmasına etiraz edir?! Tehran hökuməti 30 il bundan qabaq Ermənistanda səfirlik açıb. Ötən müddət ərzində rəsmi Bakı bu məsələni bir dəfə də olsun qabartmayıb. İsraildə və başqa istənilən ölkədə diplomatik nümayəndəlik açmaq öz işimizdir. Bu addıma görə kiməsə hesab verməli deyilik. Hələ əfsuslar ki, İsraildəki səfirliyimiz gec açılıb. Məhz İrana hörmət əlaməti olaraq, qonşuluq prinsiplərini nəzərə alaraq İsraildə səfirlik açmağı yubatmışıq. Gərginliyin yaranmasına tərəfdar olmamışıq. İran bu hörməti düzgün dəyərləndirmədi və Azərbaycana öz "əyaləti" kimi baxmağa davam etdi. İran bizi Ermənistanla dəyişik salmasın. Azərbaycan güclü, müstəqil dövlətdir və heç kimin vassalı deyil".

**İsmayıl Qocayev**

# Bu, ictimaiyyəti təhqir etməkdir

## Psixoloji problemi olan adam avtomobili arxa-arxaya, həm də uzun müddət idarə edə bilməz



***“Ali məktəblərimizdə psixoloji xidmətlə bağlı ciddi boşluqlar var. Təhsil mühiti sağlamlaşdırılmalıdır”***

**Paytaxtın mərkəzi yollarında “Volkswagen Touareg” markalı avtomobili arxa-arxaya sürərək yol hərəkəti qaydalarını kobudcasına pozmaqla digər avtomobillərin hərəkətinə mane olan, bununla da sürücülərə və piyadaların həyatına təhlükə yaradan 20 yaşlı Rauf Cabbarbəyli xəstəxanaya yerləşdirilib.**

Bu barədə Baş Dövlət Yol Polisinin məlumatında bildirilir. Saxlanıldıqdan sonra Nərimanov RPİ-nin 18-ci Polis Bölməsinə təhvil verilən R.Cabbarbəylinin psixoloji problemlərinin olması müəyyən edilib. Onun həkim nəzarətində saxlanılmasına qərar verilib. R.Cabbarbəyli Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbəsidir. ADNSU həmçinin tələbə barədə məlumat yayıb. Universitetin mətbuat xidmətinin məlumatında bildirilir ki, Cabbarbəyli Rauf Fuad oğlu 2020-ci ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Kimya texnologiya fakültəsinin 342.20E saylı qrupuna 572.8 balla qəbul olub: ”Hər bir kurs üzrə semestr boyu kəsiri olmayıb, qarışıq qiymətlər alıb. Ortalaması 72.62-dir. Elektron jurnalda semestrlər üzrə davamiyyət limitini keçməyib. Bu tələbə hazırda təhsil aldığı müddətə qədər daxili nizam-intizam qaydalarını pozmayıb”. O da məlum olub ki, hazırda Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Kimya Mühəndisliyi fakültəsinin tələbəsi olan Rauf 2020-ci ildə buraxılış imtahanlarında yüksək (238,7) bal toplayıb və həzırlaşdığı tədris mərkəzi ən yaxşı tələbələri arasında onun da fotosunu paylaşıb. Avtosfer.az saytının yaydığı məlumatda qeyd olunur ki, Rauf Cabbarbəyli “Azadlıq” meydanı yaxınlığında çılpaq soyunaraq sükan arxasında əyləşib və oradan başlayaraq avtomobili arxa-arxaya sürüb. Həmçinin R.Cabbarbəylinin hadisə vaxtı narkotik vasitənin təsiri altında olması iddia edilir.

**Məsələ ilə bağlı “Şərq”ə danışan təhsil eksperti Kamran Əsədov qeyd etdi ki, son zamanlar ali məktəb tələbələrinin qeyri-etik, bayağı, ictimai təhlükə daşıyan addımları təəssüf doğurur:**

- Neft və Sənaye Universiteti tələbələrinin Novruz bayramı şənliyində kriminal avtoritetə həsr olunmuş mahnını bir ağızdan oxuyub, mahnının sədaları altında rəqs etmələri videoları yayılanda dedim ki, ali məktəblərdə təhsil mühiti pozulub, sağlam təhsil mühiti yoxdur. Ali məktəblərimizdə psixoloji xidmətlə bağlı ciddi boşluqlar var. Təhsil mühiti sağlamlaşdırılmalıdır. Təəssüf ki, bu istiqamətdə heç bir iş görülmür. Vəziyyət isə getdikcə daha da gərginləşir. Baxın, 3-cü kurs tələbəsi əynini soyunur, lüt vəziyyətdə sükan arxasına əyləşir və avtomobili arxa-arxaya, həm də uzun müddət idarə edir. Bu nə deməkdir? Bu, ictimaiyyəti təhqir etməkdir. Bu tələbənin heç bir psixoloji problemi yoxdur. Psixoloji problemi olan adam avtomobili arxa-arxaya, həm də uzun müddət idarə edə bilməz. Bu, bilərəkdən edilmiş hərəkətdir və ictimai hörmətsizlikdir. O tələbənin psixoloji problemi yoxdur, düşüncə problemi var. Düşüncəsi soyunub avtomobil idarə etməyə “yetir”.

**Məlahət Rzayeva**



# “MediaLab” layihəsi: BDU-da master-klass keçirilib

**Medianın İnkişafı Agentliyinin “MediaLab” layihəsi çərçivəsində Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin II kurs tələbələrinə “Onlayn medianın hüquqi tənzimlənməsi” mövzusunda master-klass keçirilib.**

”Şərq” xəbər verir ki, MEDİA Agentliyinin Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli media sahəsində islahatların hüquqi əsasları, medianın fəaliyyəti, media etikası, informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı fonunda onlayn medianın hazırkı vəziyyəti, statusu, informasiya təhlükəsizliyindən danışıb.

“Media haqqında” Azərbaycan Respublikasının Qanununun əsas müddəalarını şərh edən Natiq Məmmədli, qanunun jurnalistlərin fəaliyyəti üçün əhəmiyyətini vurğulayıb, medianın bugünkü problemləri, cəmiyyət və media arasında əlaqələr barədə tələbələrlə fikir mübadiləsi aparıb. Sonda interaktiv müzakirə sessiyaları olub, tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Aygün**

# Əli Şamxani eyni fikirləri səsləndirdi

## İran Zəngəzur dəhlizinin açılmasına qarşıdır



**Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan İrana gedib. O, səfər çərçivəsində İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Şamxani ilə regiondakı vəziyyəti müzakirə edib. Həmçinin iki ölkə arasında əlaqələr və onların inkişaf perspektivlərindən söz açılıb.**

Əli Şamxani qeyd edib ki, iki ölkənin iqtisadi və siyasi əlaqələrində sabitlik Tehran və İrəvan arasında dostluq əlaqələrinin mühüm xüsusiyyətlərindən biridir. Şamxani vurğulayıb ki, bütün tərəfləri regional problemlərin qonşuluq və sülh yolu ilə birgə səylərlə həll edilməsinə çağırır: “Cənubi Qafqaz regionunun coğrafiyasında baş verən istənilən dəyişiklik regionun təhlükəsizliyinə və sabitliyinə qarşı olan aktorların maraqlarından irəli gələn və gərginlik yaradan hərəkətdir. Davamlı dialoq və əməkdaşlıq regional problemlərin həllinə sərt yanaşmaları əvəz etməlidir”. Cənubi Qafqazda vəziyyətin həssas olduğunu qeyd edən Şamxani ümidvar olduğunu bildirib ki, Ermənistan və Azərbaycan təmkinlə gərginliyi tənzimləyə və həll edə biləcək.

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, Əli Şamxaninin işlətdiyi ”Cənubi Qafqaz regionunda istənilən coğrafi dəyişiklik regional düşmənlərin əlinə oynayacaq gərginliyin artmasının ölçüsüdür” cümləsi Tehranın Zəngəzur dəhlizinin əleyhinə olduğunu təsdiq edir.** Analitikin sözlərinə görə, İran bunu İkinci Qarabağ müharibəsindən sonra dönə-dönə təkrarlayır: ”Şamxaninin cümləsində “regional düşmənlər” deyilən ölkələrə, yəni İsrail və ABŞ-yə də mesaj var. Görəsən, Şamxani Avropa İttifaqını da “regional düşmənlər” siyahısına aid edirmi? Əgər aid edirsə, Şamxani İrəvanın Avropa İttifaqının müşahidə missiyasını İranla sərhədə yaxın Qərbi Zəngəzurda iki illiyinə yerləşdirilməsi ilə bağlı qərarından narahatlığını erməni həmkarının diqqətinə çatdırmalıydı. Əli Şamxani ötən il iyulun 15-də Bakıda Prezident İlham Əliyevlə görüşü zamanı Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi münasibətilə dövlət başçımızı təbrik etmişdi. Belə çıxır ki, Şamxani və onun İrandakı həmfikirləri Azərbaycanın Qarabağ üzərində suverenliyini qəbul edirlər. Ancaq Azərbaycanın Ermənistanla təmas xəttində möhkəmlənməsini, strateji yüksəkliklərə nəzarət etməsini və Qərbi Zəngəzur dəhlizinin açılması ilə gələcəkdə azərbaycanlıların tarixi torpaqlarına qayıtmasını istəmirlər. Bu, Tehranın siyasətindəki yeganə təzad deyil. Bütün hallarda dialoq yolu ilə hazırkı gərginlikdən çıxış yolları tapılmalıdır”.

**İsmayıl**

# Artıq rəsmiləşdirmək lazımdır

## Azərbaycan Laçın dəhlizində nəzarət-buraxılış məntəqəsi qurmalıdır



**”Laçın yolunda postların qurulması realdır və Azərbaycan dövlətinin əsas məqsədlərindən biri də budur”.**

Bunu ”Şərq”ə açıqlamasında siyasi şərhçi Turab Rzayev “Laçın yolundakı postlar tezliklə açılacaq” iddialarına münasibət bildirərkən deyib.

O qeyd edib ki, sivil QHT-lərin və vətəndaş cəmiyyətinin əsas məqsədi də Laçın yoluna nəzarətin əldə olunması və ölkəmizin sərvətlərinin qanunsuz daşınmasının qarşısının alınmasıdır: ”Hətta aprelin 1-də Ermənistan hakimiyyəti köhnə Laçın yolunun bir hissəsindən istifadəni davam etdirmək istəyirdi. Azərbaycan bunun qarşısını almaq üçün Laçındakı yüksəklikləri ələ keçirərək onları yeni Laçın yolundan istifadə etməyə məcbur etdi. Artıq Azərbaycan həm yeni Laçın yolunun Ermənistanla giriş hissəsində, həm də Xankəndiyə girişdə post quraraq nəzarət etməlidir. Hətta bununla bağlı ilkin görüntülər də var idi. Xatırlayırsınızsa, artıq yoxlamalar başlamışdı, sərhəddə bir çox maşın yığışmışdı. Həmçinin orada kiminsə halı pisləşmişdi və Azərbaycanın təcili tibbi yardım maşını Xankəndi yoluna çıxmışdı. Lakin artıq bunun rəsmiləşdirilməsi lazımdır. Düzdür, Lavrov da çıxış etmişdi ki, Laçın dəhlizində xüsusi nəzarət-buraxılış məntəqəsi ilə bağlı razılıq yoxdur. Buna İran da etiraz edir. Azərbaycana olan təzyiqlərin bir qismi də bununla bağlıdır. Ermənistan isə dünya ictimaiyyətini ayağa qaldırmağa və beynəlxalq təşkilatlarla Azərbaycan arasında gərginlik formalaşdırmağa çalışır. Bu təzyiqlərə rəğmən Azərbaycan tərəfi Laçın dəhlizində nəzarət-buraxılış məntəqəsi qurmalıdır. Çünki bu, bizim qırmızı xəttimizdir. Sülh bəyanatına görə də Azərbaycan Laçın dəhlizinin təhlükəsizliyinə cavabdehdir. Əgər təhlükəsizliyə cavabdeh Azərbaycandırsa, nəzarət də bizim əlimizdə olmalıdır”.

**Nihat**

# Qadınlar Komitədən imdad diləyir

## Məhkəməyə müraciətlərin böyük əksəriyyəti alimentlə bağlıdır



***“Daha sərt tədbirlərin görülməsi vacibdir. Eyni zamanda Aliment Fondunun yaradılması da mütləq lazımdır”***

**Bu ilin ilk üç ayı ərzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə vətəndaşlardan daxil olan müraciətlərin sayı açıqlanıb. Dövlət Komitəsinin məlumatında qeyd olunur ki, komitəyə ümumilikdə 957 müraciət daxil olub.**

Müraciətlərdə üstünlük təşkil edən mövzu məhkəmə qərarlarının icrası ilə bağlıdır. Belə ki, müraciətlərin 47-si məişət məsələləri, 69-u işlə təmin olunma, 73-ü müxtəlif yönümlü sosial müavinətlərin verilməsi, 97-si məişət zorakılığı və 189-u məhkəmə qərarlarının icrası ilə bağlı olub.

Məhkəmə qərarlarının icrasıyla bağlı niyə bu qədər müraciət daxil olur? Məhkəmə qərarlarının icrasına mane olan səbəbləri öyrənməyə çalışdıq. “Təmiz dünya” Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova “Şərq”ə açıqlamasında qeyd etdi ki, müraciətlərin böyük əksəriyyəti məhz alimentlə bağlıdır:

- İş təcrübəmdən bilirəm ki, alimentin ödənməməsiylə bağlı narazılıqlar daha çox olur. Məhkəmənin qərarı icra olunmadığından qadınlar Komitəyə müraciət edir. Alimentin ödənməsindən yayınma halları çoxdur. Çox zaman da alimentin ödənməsini kecikdirirlər. Bəzən məhkəmə qarşı tərəfin qadına ev alması haqqında qərar çıxarır. Amma ev alınması üçün məhkəmənin təyin etdiyi məbləğ ödənmir, illər keçir, borclar yığılır. Məhkəmə qərarlarının icrasının gecikməsinin müxtəlif səbəbləri olur. Bəzən kişilər alimentin ödənməməsi üçün zorakı metodlara əl atırlar. İşsizliyi əsas kimi göstərərək alimentin ödənməsini qeyri-mümkün edirlər. İş yerini, gəlirlərini gözlədənlər də olur.

**Mediasiya Şurasının bu kimi məsələlərdə zərərçəkənlərə yardımı barədə isə M.Zeynalova bunları dedi:**

- Mediasiya Şurası vasitəçilik edir. Məlumdur ki, tərəflərin birgə razılığı əsasında mediator təyin edilir, mediator mübahisəli məhkəmə işlərini həll etməyə çalışır. Mediatorun köməyi bu olur ki, məhkəmələr təkrar qərarlar prosedurunu keçirməkdən azad olur, verilmiş qərarlar təkrar prosedurlara ehtiyac qalmadan təsdiqlənir. Amma iş yenə də icrada ləngiyir. Əvvəlki illərə nisbətən məhkəmə icraatçıları işlərinə daha məsuliyyətlə yanaşır. Amma dediyim kimi, məhkəmə qərarlarının icrası müxtəlif səbəblərdən ləngiyə bilir. Hesab edirəm ki, aliment ödənməsindən yayınma hallarının qarşısının alınmasında daha sərt tədbirlərin görülməsi vacibdir. Eyni zamanda Aliment Fondunun yaradılması da mütləq lazımdır.

**Məlahət Rzayeva**

# "Ana məhəbbəti"

## Nümunəvi dərs maraqla qarşılandı







**Xırdalan şəhər 10 nömrəli tam orta məktəbin fəaliyyət planına uyğun olaraq 10 aprel 2023-cü il tarixində ibtidai sinif müəllimi Tağıyeva Sevinc Ağasəlim qızının təşkilatçılığı ilə 1a sinfində Azərbaycan dili fənni üzrə ”Ana məhəbbəti” mövzusunda nümunəvi dərs təşkil olunub.**

”Şərq” xəbər verir ki, dərsdə müasir təlim metodlarından istifadə olunub. Şagirdlərin fəallığı ilə keçən dərsin sonunda fikir mübadiləsi aparılıb, rəylər ümumiləşdirilib və qiymətləndirmə aparılıb.

Nümunəvi dərsdə məktəb rəhbərliyi və müəllimlər iştirak ediblər. Dərs böyük maraqla qarşılanıb və qənaətbəxş hesab olunub.



# Xalq seçkiöncəsi bütün gizli razılaşmaları görür

## Müxalifət blokunda gərginlik pik həddə çatıb

**Türkiyədə mayın 14-də keçiriləcək seçkidə deputatlığa namizədlərin siyahısının tərtibi zamanı müxalifət blokunun nümayəndələri arasında dava düşüb. "Star" qəzetinin məlumatına görə, müxalifət blokunda gərginlik pik həddə çatıb. Cümhuriyyət Xalq Partiyasının (CHP) namizədlərlə bağlı sonuncu iclasında mübahisə ucbatından siyahılar 4 dəfə dəyişdirilib. Böhran kiçik partiyaların köməyi ilə qismən aradan qaldırılsa da, daha sonra siyahı ilə razılaşmayan CHP üzvləri davaya başlayıblar.**

"Millət İttifaqı"ndan prezidentliyə vahid namizəd Kamal Kılıçdaroğlunun mühafizəçiləri məsələyə müdaxilə ediblər. Məlumat üçün bildirək ki, Türkiyədə seçkidə iştirak edən siyasi partiyalar ayın 9-da yekun namizəd siyahılarını Yüksək Seçim Quruması (YSQ) təqdim ediblər. "Millət İttifaqı"nda yer alan partiyaların seçki strategiyası da məlum olub. Səadət Partiyası, Demokratiya və Sıçrayış Partiyası, Gələcək Partiyası və Demokrat Partiyasının deputatlığa namizədlərinin Cümhuriyyət Xalq Partiyasının siyahısında mübarizə aparacağı açıqlanıb. Sədr Kamal Kılıçdaroğlu tərəfindən digər partiyalara 30 deputat yerinin veriləcəyi bildirilib. İYİ Partiyaya da həmin siyahıda mübarizə aparmaq təklif olunsa da, təşkilat sədri Meral Akşener təklifi rədd edib. Narazılığa səbəb olan məsələlərdən biri də CHP-nin deputatlığa namizəd siyahısında terrorçu PKK-ya yaxınlığı olan şəxslərin yer alması idir. Xatırladaq ki, mayın 14-də Türkiyədə prezident və parlament seçkiləri keçiriləcək. Dövlət başçısı postu uğrunda 4 namizəd mübarizə aparacaq. Bunlar "Cümhur İttifaqı"nın namizədi Rəcəb Tayyib Ərdoğan, "Millət İttifaqı"nın namizədi, müxalif Cümhuriyyət Xalq Partiyasının sədri Kamal Kılıcdaroğlu, müxalif Məmləkət Partiyasının lideri Məhərrəm İncə və "Ata İttifaqı"nın namizədi Sinan Oğandır. YSQ-nin məlumatına görə, seçkidə ümumilikdə 61 milyona yaxın adam səs verəcək. Türkiyədən kənarda olan seçicilərin sayı isə 3 milyondan çoxdur. Analitiklərin fikrincə, müxalifət parlament seçkisinin nəticələrinə daha çox önəm verir. Çünki Türkiyə Böyük Millət Məclisində üstünlüyün əldə olunması mübahisəli qanunların asanlıqla qəbulu, hökumət tərəfindən təklif olunan layihələrin isə geri çevrilməsi anlamına gəlir.

**"Türk xalqı bu seçki imtahanından da üzüağ çıxarsa, Türkiyənin önü açılacaq**

*Növbəti onilliklərdə Türkiyə dövləti bütün qlobal qərarlarda həlledici aktorlardan olacaq"*

**Milli Strateji Tədqiqatlar Mərkəzinin rəhbəri, siyasi şərhçi Natiq Miri də "Şərq"ə açıqlamasında "Millət İttifaqı"nın parlament seçkisinə ciddi yanaşdığını deyib. Politoloq vurğulayıb ki, parlamentdə müxalifətin üstünlük əldə etməsi hökumət üzərində daim təzyiq deməkdir:** "Müxalif blok parlament seçkisini kürd seçicilərin səslərindən yararlanmaqla qazanmaq istəyir. PKK ilə əlaqələri olan şəxslərin müxalifət tərəfindən namizəd siyahısına salınması da məhz həmin məqsədə xidmət edir. Lakin CHP və ətrafındakılar fərqinə varmırlar ki, baş verənlər türk xalqı tərəfindən yaxından izlənilir. Xalq seçkiöncəsi yaşanan prosesləri, gizli razılaşmaları görür. Türkiyə PKK ilə 30 ildən çoxdur apardığı mübarizədə 35 mindən artıq şəhid verib. Xalq bunu unutmaz və heç kimə bağışlamaz. Türkiyə sadəcə kürd toplumun səsindən ibarət deyil, böyük əksəriyyətin mövqeyi əsasdır. Ümumiyyətlə, Türkiyədə keçiriləcək seçkilər qardaş ölkənin gələcəyi ilə bağlıdır və sıradan seçki deyil. Həm regional, həm qlobal baxımdan mühüm təsirləri olacaq bir seçkidir. Türkiyə xalqı bu seçkilərlə bir sınaqdan, imtahandan keçəcək və öz gələcəyini müəyyənləşdirəcək. Bəzən fikirlər səslənir ki, "AKP 20 ildir hakimiyyətdədir, artıq insanlar yorulub, görək müxalifət ölkəni necə idarə edəcək". Ancaq dövlət və millət mövzuları test olunacaq məsələlər deyil. Türkiyənin yönü, istiqaməti bəllidir. Müstəqil və güclü Türkiyənin 2053 və 2073 hədəfləri var. Türk xalqı seçki imtahanından üzüağ çıxarsa, müstəsna xidmətləri olmuş AKP-ni, "Cümhur İttifaqı"nı dəstəkləyərsə, Türkiyənin önü açılacaq. Növbəti onilliklərdə Türkiyə dövləti bütün qlobal qərarlarda həlledici aktorlardan olacaq. Əgər bu mənzərə Azərbaycandan bariz görünürsə, şübhəsiz ki, Türkiyə daxilində də xalq prosesləri yaxşı görür və düzgün dəyərləndirir".

İsmayıl Qocayev

# "Daha böyük itkilər qabaqdadır"

## Politoloq: "Rusiya öz suverenliyini də itirə bilər"



**"Rusiya-Ukrayna müharibəsi hələ davam edəcək və daha şiddətli xarakter alacaq". Bunu "Şərq"ə açıqlamasında politoloq Azər Niftiyev deyib. Analitik bildirib ki, Rusiya vaxtı ilə Ukrayna və Gürcüstanı işğal edəndə Qərb dairələri, ABŞ, Böyük Britaniya və Avropa ölkələri buna dözüm nümayiş etdirdilər: "Qərb Rusiya ilə bütün körpüləri yandırmaq istəmirdi.**

Ötən il fevralın 28-də başlayan hərbi əməliyyatlar göstərdi ki, Qərb ölkələri Rusiyanın hərəkətlərinə göz yummaq fikrində deyil. Onlar fərqində idi ki, birbaşa Rusiyanın timsalında və rəhbərliyi altında dünyada anti-Qərb mövqeyi güclənməkdədir. Rusiya işğalçılıq siyasətini heç bir halda dayandırmayacaq. Əgər savaş başlayıbsa, onun nəticəsiz bitəcəyini təsəvvür etmək mümkün deyil. Bir il ərzində Ukraynaya Qərb ölkələri tərəfindən böyük məbləğdə maddi yardım edilib, silah-sursat göndərilib. Rusiyanın bütün resursları tükənmək üzrədir. Belə şəraitdə Qərbin geri çəkiləcəyini düşünmək sadəlövhlük olardı. O baxımdan Ukrayna rəsmilərinin müharibənin gedişatı barədə iddiaları həqiqəti əks etdirir. Rusiya və Ukraynanın iqlimi kifayət qədər soyuqdur. Havalar isinən kimi şiddətli hərbi əməliyyatların şahidi olacağıq. Birmənalı şəkildə nə Rusiyanın, nə də Ukraynanın qalib gəlmək ehtimalı var. Burada qazanan yeganə tərəf Qərb olacaq və Moskvaya öz diktəsini edəcək. Hətta proseslərin fonunda Rusiya öz suverenliyini də itirə bilər. Daha böyük itkilər qabaqdadır. Zəifləyən və tələyə düşdüyünü anlayan Rusiya yeni münaqişə ocaqları yarada bilər. Bu xüsusda ehtiyatlı olmaq lazımdır".

İsmayıl

# PUA gəmisi vacibdir

## Türkiyə kimi Azərbaycan da Xəzər donanmasını gücləndirməyə çalışır



**Türkiyədə dünyanın ilk hərbi PUA gəmisi – "TCG Anadolu" xidmətə başlayır. "TCG Anadolu" 13 tank, 27 zirehli amfibiya hücum maşını, 6 zirehli personal daşıyıcısı, 33 müxtəlif texnika və 15 qoşqu olmaqla ümumilikdə 94 nəqliyyat vasitəsini göyərtəsində daşıya bilir. Gəmi hazırda orduda xidmətə tam hazırdır və ölkə Prezidenti Rəcəb Tayyib Ərdoğanın da qatılacağı mərasimlə Müdafiə Sənayesi Nazirliyi tərəfindən Dəniz Qüvvələri Komandanlığına təhvil veriləcək.**

Politoloq Turan Rzayev "Şərq"ə deyib ki, ümumiyyətlə, amfibiya hücum gəmisinin layihəsi Dəniz Qüvvələri Komandanlığının ehtiyaclarına uyğun olaraq hələ 2015-ci ildən hazırlanmağa başlanıb. Analitik bildirib ki, Yunanıstanla vaxtaşırı gərginlik Rusiya-Ukrayna müharibəsinin Qara dənizdə yaratdığı təhlükəsizlik problemi, habelə yeni kəşf edilən karbohidrogen yataqları ilə birlikdə Ankaranın artan maraqları Türkiyənin donanmasını gücləndirməyi zərurətini yaradıb: "Türkiyə hazırkı statistik göstəricilərə görə, dünyanın ən böyük 12-ci, Aralıq dənizinin isə 5-ci ən böyük donanmasına malikdir. Bu çox ciddi göstərici olsa da, Ankara mövcud donanma potensialını artırmaq niyyətindədir. "TCG Anadolu" bu baxımdan Türkiyənin mövcud donanma potensialını artıracağı kimi dənizlərdə aviasiya üstünlüyü də təmin edəcək. Xüsusilə vurğulamalı olan məqam isə "TCG Anadolu"nun PUA gəmisi olmasıdır. Nəzərə alaq ki, PUA-lar müasir döyüşlərin əvəzsiz bir parçasıdır. Türkiyə bu sahədə kifayət qədər ixtisaslaşmış bir ölkədir. Bu aparatların donanmalara inteqrasiyası və dənizlərdə tətbiqi növbəti yenilik hesab edilə bilər. Bu həm də gələcəkdə PUA-ların uçuş məsafəsinin eyni zamanda havada qalma müddətinin artırılması üçün yeni sınaqların keçirilməsi baxımından da vacibdir".

Ekspertə görə, Türkiyədə dünyanın ilk hərbi PUA gəmisinin xidmətə başlaması dünya hərb tarixində yeni bir səhifənin açılması deməkdir: "Bu, Azərbaycan üçün də mühüm bir hadisədir. Məsələ ondadır ki, ən az Türkiyə kimi Azərbaycan da Xəzər donanmasını gücləndirməyə çalışır. Mövcud İran-Azərbaycan gərginliyi Xəzər donanmasının gücləndirilməsinin vacibliyini bir daha göstərdi. Hesab edirəm gələcəkdə Türkiyə və Azərbaycan Xəzərdə "TCG Anadolu" bənzəri yeni bir PUA gəmisinin ərsəyə gəlməsi üçün ortaq iş görə bilər. Xəzər dənizində Azərbaycan donanmasının tərkibində "TCG Anadolu" kimi bir PUA gəmisinin olması İran kimi ölkələrə gözdağı olacağı kimi Mərkəzi Asiya türk dövlətləri nəzdində Ankara və Bakının dəyərini daha da artıracaq. Bu həm də TDT baxımından da ciddi addım ola bilər".

İsmayıl Qocayev

# Bakıda binalar keyfiyyətsiz tikilir

## İstismara qədər binalar ən azı 3 dəfə yoxlanmalıdır

**Bakıda inşa edilən yeni yaşayış binasında liftin şaxtası çöküb. Bu barədə məlumat sosial şəbəkədə paylaşılıb. İddia edilir ki, hadisə paytaxtın Nəsimi rayonu, Cavadxan küçəsində inşa edilən yaşayış binalarından birində baş verib.**

Sakinlər iddia edirlər ki, "Memar Əcəmi" metrostansiyasının yaxınlığında yeni inşa edilmiş yaşayış binasından mənzil alan sakinlər evlərinə köçməyə qorxurlar. Binanın lift üçün nəzərdə tutulmuş qovşağı çöküb və yararsız hala düşüb.

Məsələ ilə bağlı Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidmətindən Oxu.az-ın sorğusuna cavab olaraq bildirilib ki, FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən qeyd olunan binada tikinti işlərinə icazə sənədi olmadan başlanıldığı müəyyən edilib: "Qurum tikinti işlərinin dayandırılması barədə qərar qəbul edib. Bu barədə aidiyyəti dövlət qurumlarına mütəmadi olaraq məktublar ünvanlanıb. Eyni zamanda tikintini aparan subyekt barəsində İnzibati Xətalar Məcəlləsinin tələbinə uyğun olaraq inzibati protokol tərtib edilib".

**Məsələyə münasibət bildirən tikinti üzrə ekspert Vüqar Oruc "Şərq"ə söyləyib ki, tikintiyə başlamazdan öncə planlama, proyektin hazırlanması və tikintinin aparılacağı ərazinin geoloji araşdırılması aparılır:**

"Əgər hansısa problem yoxdursa, tikintiyə icazə verilir. Ümumiyyətlə, bu prosesin əvvəlindən sonuna qədər FHN yanında Tikinti Təhlükəsizliyinə Nəzarət Dövlət Agentliyinin nəzarəti olmalıdır. Bir binanın istismara qəbulu üçün təqribən 26 distansiya razılıq verməlidir. Təəssüf ki, bir çox hallarda



Bakı şəhərində sözügedən ardıcıllıq gözlənilmir və müxtəlif vasitələrlə tikintiyə razılıq əldə edilir. Hətta bu gün yenidən yoxlamalara başlansa, binaların təbii fəlakətə davamlı olub-olmamasında neqativ nəticələrlə qarşılaşacağıq. Ona görə də müvafiq strukturlar məsələni yenidən nəzarətə götürməlidir. Düzdür, Türkiyədə baş verən zəlzələdən sonra bəzi qurumlar eyni hadisənin Azərbaycanda yaşanmaması üçün tikintilərin keyfiyyətini araşdırmaq məqsədi ilə komissiya yaradıb. Lakin bu komissiyanın işi şəffaf olmalıdır.

Bunun üçün isə həm dövlət qurumlarından, həm inzibati qurumlardan, həm də ictimaiyyətdən prosesin şəffaflığını izləmək üçün qruplar yaradılmalıdır. Çünki bu, ciddi məsələdir və hansısa təbii fəlakət nəticəsində ölkəmiz böyük problemlərlə qarşılaşa bilər". Ekspertin sözlərinə görə, tikintinin istismara qədər dövrü üçün ən azı 3 dəfə yoxlama aparılmalıdır: "İlk növbədə tikintinin aparılacağı yerin uyğun olub-olmadığı müəyyən edilməlidir. İkincisi, tikinti prosesində istifadə edilən materialların müvafiq keyfiyyət kateqoriyasına uyğunluğu müəyyənləşdirilmədir. Üçüncüsü, tikintidə Nazirlər Kabineti tərəfindən qəbul edilən qaydalara riayət edilib-edilməməsi yoxlanmalıdır.

Son olaraq bina istismara hazır vəziyyətə gətirildikdən sonra onun müvafiq qurğuları, planlama işləri, təhlükəsizlik məsələləri, yanğından mühafizə və binanın həyətinin fövqəladə hadisələr zamanı yardıma uyğunluğu dəqiqləşdirilməlidir. Yalnız bunlardan sonra sakinlərin həmin binada yaşaması təmin edilə bilər.

Qardaş Türkiyədə bunlara göz yumulduğu üçün fəlakət bir neçə dəfə artıq baş verdi. Bizim ölkəmiz də təbii fəlakətlər üçün təhlükəli sayılan bir regionda yerləşir. Hətta belə hadisələrin bizdə də olması proqnozlaşdırılır. Ona görə də real problemlə qarşı-qarşıya qalmadan öncə müvafiq dövlət qurumları təcili tədbirlər görməlidir".

Nihat Müzəffər

# Rəqabət güclənəcək

## Buraxılış imtahanında şagirdlər çətinlik çəkməyiblər



**9 aprel 2023-cü il tarixində Bakı şəhərinin Nəsimi, Nərimanov, Sabunçu, Səbail, Xətai rayonlarında, Gəncə (I hissə), Lənkəran, Şəki şəhərlərində, Astara, Ağdam, Ağcabədi, Ağsu, Biləsuvar, Daşkəsən, Xızı, İmişli, Kürdəmir, Qusar, Saatlı, Şabran, Samux, Şəmkir, Siyəzən və Zərdab rayonlarında ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib.**

İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 195 imtahan binası, 3575 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 568 imtahan rəhbəri və ümumi rəhbər, 4434 nəzarətçi-müəllim, 643 buraxılış rejimi əməkdaşı (mühafizə), 195 bina nümayəndəsi ayrılıb.

Qeyd edək ki, imtahanda 47917 şagirdin iştirakı gözlənilirdi.

**DİM tərəfindən 20 şəhər və rayonda imtahanın keçirildiyini deyən təhsil eksperti Kamran Əsədov "Şərq"ə bildirib ki, imtahanlar mərhələli şəkildə həyata keçirilib:** "İmtahanda 47 mindən artıq şagird iştirak edib. Çox təəssüf ki, yeniyetmə uşaqlar olmaqlarına baxmayaraq 5 şagird üzərində telefonla imtahana keçməyə cəhd edib. Son üç il ərzində orta məktəb şagirdlərinin arasında bu tip neqativ halların artdığını görürük. İmtahan nəticələri haqqında isə deyə bilərəm ki, riyaziyyat və Azərbaycan dili fənnindən suallar asan idi. Hətta imtahan çıxan şagirdlər arasında sorğu apardıq və onlar ingilis dili dilinə mətni istisna olmaqla digər suallarda çətinlik çəkmədiklərini qeyd etdilər. Yeni imtahan iştirakçıları onlara təqdim edilmiş test tapşırıqlarının cavablandırılması ilə bağlı problem yaşamayıblar".

Ekspert qeyd edib ki, mart ayının 5-i və 12-də keçirilən imtahanlarda test tapşırıqları daha çox vaxt aparmışdı və çətin suallar idi: "Amma aprel ayının 9-da baş tutan buraxılış imtahanında biz bunu görmədik. Xüsusən Bakı şəhəri ərazisindəki Nəsimi, Nərimanov və Xətai rayonlarındakı məktəblərdən çıxan şagirdlər imtahan nəticələri ilə bağlı xoş təəssüratlarını bölüşdülər. Onlar qeyd etdilər ki, təqdim edilmiş test tapşırıqları orta məktəb və DİM-in nəşr etdiyi "Abituriyent"in xüsusi buraxılışındakı proqrama tamamilə uyğundur. Hətta açıq və situasiya tipli sualların cavablandırılmasında çox vaxt tələb etməyib. Bu isə nəticələrin 9-cu sinif üzrə yüksəlməsinə gətirib çıxaracaq. Biz 11-ci siniflərin nəticələrinin aşağı olduğunu gördük. Dünənki imtahan nəticələrinin yaxşı olduğu təqdirdə, 9-cu sinifdən kolleclərə keçid müsabiqələrinin gərginləşməsi ehtimalı böyükdür".

Nihat Müzəffər

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi;



# Ağdam şəhəri Qarabağın sənaye mərkəzi olacaq

## Deputat vurğulayıb ki, Ağdam Sənaye Parkında sahibkarlar çoxsaylı güzəştlərdən istifadə edə biləcəklər

**Hazırda Azərbaycan işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda regenerasiya və reinteqrasiya dövrünü yaşayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə postmünaqişə dövründə quruculuğun əsas istiqamətləri müəyyənləşdirilib. İşğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa-quruculuq işləri sürətlə davam etməkdədir. Nəzərə alaq ki, Qarabağın bərpası dünyada analoqu olmayan, böyük bir meqa layihədir. Azərbaycan 10 min kvadrat kilometr ərazidə həyatı yenidən qurmağa çalışır.**

Əhalinin öz yurduna köçünü təmin etmək üçün ərazidə ilk növbədə mühüm infrastruktur qurulmalı, nəqliyyat yolları çəkilməli, yaşayış və qeyri-yaşayış obyektləri tikilməli, kommunal məsələlər öz həllini tapmalıdır. Təbii ki, ən önəmli məsələlərdən biri də mərhələli şəkildə bölgəyə köçürülən sakinlərin iqtisadi fəallığının təmin olunması, iş yerlərinin yaradılmasıdır. Məhz bu məqsədlə Şərqi Zəngəzurda və Qarabağ iqtisadi zonalarında Sənaye Parklarının yaradılmasına qərar verildi və bölgəyə sahibkarlar cəlb olunmağa başlandı. Ötən gün yayılan xəbərə görə, Ağdam Sənaye Parkında ayaqqabı istehsalı müəssisəsi yaradılacaq. İqtisadiyyat naziri Mikayıl Cabbarovun məlumatına görə, Ağdam Sənaye Parkında daha bir sahibkarlıq subyektinə rezident statusu verilib və rezidentlərin sayı 15-ə çatıb: "Sənaye parkında yeni rezident "BAFCO İnvest" MMC tərəfindən investisiya həcmi 10 milyon manat olan müxtəlif təyinatlı çəkmə və ayaqqabıların istehsalı müəssisəsi yaradılacaq və 120 nəfər işlə təmin ediləcək". Xatırladaq ki, Prezident İlham Əliyevin 28 may 2021-ci il tarixli fərmanı ilə Ağdam Sənaye Parkı yaradılıb. Ağdam Sənaye Parkının fəaliyyətinin təşkili və onun ərazisində infrastrukturun yaradılması məqsədilə İqtisadiyyat Nazirliyinə ilkin olaraq 500 min manat ayrılıb. Qeyd olunub ki, burada rezidentlər dövlət tərəfindən torpaq sahəsi, nəqliyyat və kommunal xidmətlər də daxil olmaqla lazımi infrastrukturla təmin olunacaq. Aşağı kirayə haqqı, gəlir və əmlak vergisindən 10 il müddətinə, habelə istehsal məqsədləri üçün avadanlıq və texnologiyaların gətirilməsi halında ƏDV və idxal rüsumlarının ödənilməsindən müvafiq olaraq 10 və 7 il müddətinə azad edilmə sənaye parklarının rezidentləri üçün əlavə stimul olacaq. Ağdam Sənaye Parkının yeni qeydiyyata alınmış rezidentlərinin ümumi investisiya həcmi 36 milyon manata yaxın olan layihələrinin reallaşması nəticəsində 130-dan çox daimi iş yeri yaradılacaq. Bundan əvvəl xəbər verilib ki, "Qarabağ Steel" MMC Sənaye Parkının 5 hektar ərazisində investisiya dəyəri 32,4 milyon manat olan boru və qutu profillərin istehsalı zavodunu inşa edəcək. 94 nəfərin daimi işlə təmin ediləcəyi müəssisədə istehsal olunacaq məhsulların daxili bazarda satışı ilə yanaşı, xaricə ixracı da nəzərdə tutulur. Ağdam Sənaye Parkının digər yeni rezidenti "Thermo Natural Azerbaijan" MMC Sənaye Parkının 1 hektar ərazisində alçı, eksteryer suvaq, dolğu və izolyasiya materiallarının istehsalı zavodunu inşa edəcək. İnvestisiya dəyəri 3,5 milyon manat olan və 37 nəfərin işləyəcəyi müəssisədə istehsal olunacaq məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək. Ümumiyyətlə, Ağdam Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir. İqtisadi Zonaların İnkişafı Agentliyinin şöbə müdiri Xazin Hidayətov bildirib ki, artıq rezidentlərin bir çoxu tikinti işlərinə başlayıb. "Metkons" MMC havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatların, "Dadaş-N" MMC müxtəlif çeşiddə xalçaların, "Veliev" MMC prefabrik dəmir-beton məmulatları istehsalı müəssisələrinin inşasına start veriblər.

Sənaye Parkının digər rezidentləri tərəfindən isə layihələndirmə işləri görülür və yaxın zamanda tikinti işlərinə başlanması planlaşdırılır. Ümumilikdə, Ağdam Sənaye Parkına 60 milyon manatdan çox investisiya yatırılacaq. Sənaye Parkında 700-dən artıq iş yerinin yaradılması nəzərdə tutulur. Bəyan edilib ki, azad edilmiş ərazilərin potensialı nəzərə alınaraq, burada dörd regional mərkəzin yaradılması planlaşdırılır. Ağdamda sənaye, Cəbrayılda logistika və ticarət, Şuşada mədəniyyət və turizm, Kəlbəcərdə mədənçilik və turizm mərkəzləri yaradılacaq. Ekspertlərin fikrincə, Qarabağda yaradılan müəssisələr yerli istehsalın inkişafına təkan verməklə, bölgənin resurslarının iqtisadi dövriyyəyə cəlb edilməsinə, regionun dirçəlişinə, bütünlükdə ölkəmizdə qeyri-neft sənayesinin inkişafına mühüm töhfə verəcək.

**Millət vəkili Vüqar Bayramov "Şərq"ə açıqlamasında bildirib ki, Ağdam şəhəri Qarabağın sənaye mərkəzi olacaq. Deputat vurğulayıb ki, Ağdam Sənaye Parkında sahibkarlar çoxsaylı güzəştlərdən istifadə edə biləcəklər:** "Formalaşmış struktur sahibkarlara Sənaye Parkında daha çox məhsul istehsalı imkanları yaradır. Ona görə də gözləndiyi kimi Ağdam Sənaye Parkına maraq kifayət qədər yüksəkdir. Digər tərəfdən, nəqliyyat və logistikanın inkişaf etməsi də Sənaye Parkında istehsal edilən məhsulların regional və dünya bazarına çıxarılması baxımından yeni imkanlar vəd edir. Bu da iş adamları üçün istehsal etdikləri məhsulların realizasiyasına imkan yaradacaq. Eləcə də Qarabağ iqtisadi rayonunun özünün böyük potensialı olmaqla yanaşı, həm də istehsal edilən məhsullara ciddi tələbat yaranacaq. Təbii ki, tələbin qarşılanmasında Ağdam Sənaye Parkı xüsusi rola malik olacaq. Sənaye parkları bütövlükdə Qarabağda iqtisadiyyatın formalaşması və reinteqrasiya prosesinə müsbət töhfə verəcək. Bu, ondan xəbər verir ki, çox qısa zamanda Qarabağda, Şərqi Zəngəzurda yeni istehsal müəssisələrinin yaradılması və məhsul istehsalının genişləndirilməsini müşahidə edəcəyik".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**




# Azər Paşa Nemətov son mənzilə yola salındı

## Xalq artisti İkinci Fəxri xiyabanda dəfn olunub

**Azərbaycan mədəniyyətinə daha bir ağır itki üz verib. Milli teatr sənətində müstəsna xidmətləri olmuş görkəmli rejissor, Xalq artisti, Azərbaycan Teatr Xadimləri İttifaqının İdarə Heyətinin sədri, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru Azər Paşa Zəfər oğlu Nemətov aprelin 9-da ömrünün 76-cı ilində vəfat edib.**

Əvvəlcə mərhumla Akademik Milli Dram Teatrında vida mərasimi keçirilib.

Mərasimdə mərhumun ailə üzvləri, yaxınları ilə yanaşı, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Mədəniyyət Nazirliyinin nümayəndələri, mədəni-ictimai xadimlər və media mənsubları iştirak edib.

**Xalq artistinin vəfatı ilə bağlı "Şərq"ə danışan Xalq artisti Valeh Kərimov kədərini dilə gətirib:**

"Mən burada işləmirəm. Mingəçevirdə qalıram. Nə vaxt teatra gəlsəm, onda görüşüb, salamlaşırdıq. Allah rəhmət etsin. Azərbaycan teatrına itkidir, zəhməti çoxdur. Həm yetişdirdiyi aktyorlar, universitetdəki tələbələri ilə əziyyəti olan insan idi. Rejissorlarımızdan biri idi. Biz haradasa 40 ildən çoxdur tanış idik. Universitetdə paralel təhsil alırdıq. Mən aktyorluq üzrə oxuyurdum, o da rejissorluq. O zamandan salamımız var idi. Ondan başqa tədbirlərdə iştirak edirdik, tamaşaların premyeralarında iştirak edirdik".

**Xalq artisti Rasim Balayev mərhumla 58 ildir ki, dostluq münasibətinin olduğunu söyləyib:** "Azər Paşa müəllimlə biz 1965-ci ildə universitetə daxil olmuşuq. O, rejissorluğa, mən aktyorluğa. 58 ildir ki, dost idik. Sənətkar ailəsində dünyaya gəlmişdi, atası Zəfər Nemətov da rejissor idi. Martın 10-da məni çağırdı, sənətkar medalı verdi, görüşdük. Elə bir-birimizlə danışırdıq, maşına qədər ötürürdü. Bir az ağrıyırdı, mənim də ağrılarım var idi. O mənə təskinlik verirdi, mən ona. Bir sözlə, Azər Paşa Nemətovun bu həyatdan getməyi Azərbaycan sənəti, teatrı və mədəniyyəti üçün böyük itkidir. İnsanları əvəz etmək olmur. Hərənin öz yeri var. Mən həm də böyük dost itirmişəm".

**Vida mərasimində çıxış edən Xalq artisti Nurəddin Mehdixanlı bildirib ki, Azərbaycan mədəniyyətinin böyük nümayəndəsi ilə vidalaşırıq:** "Düşünürəm ki, bu, bizim Azər Paşa Nemətovla son görüşümüz deyil. Çünki bundan sonra da onun quruluş verdiyi tamaşalarda oynayıb, onu xatırlayacağıq. Onun hazırladığı tamaşalar oynanıldıqca da xatırlanacaq. Mənim onunla ilk tanışlığım Rüstəm İbrahimbəyovun bir əsərində oynadığım tamaşada olub. Firəngiz Mütəllimova ilə sözsüz bir rolum var idi. İki gün bundan əvvəl onun quruluş verdiyi "Cəhənnəm sakinləri" tamaşasında rol oynayırdım, Azər Paşa müəllim də adəti üzrə lojada əyləşmişdi. Sona qədər tamaşanı izləyirdi, sonda isə ayaqüstə aktyorları alqışlayırdı. Sözsüz bir rolla başlayan yaradıcılıq yolumuz teatr səhnəsində onunla bərabər böyük rolların ifaçısına çevirdi. O çox istedadlı, fərqli düşünən, fərqli oxumağı bacaran rejissor idi. O, aktyoru ağır yükün altında qoymadan istədiyinə nail olurdu. Çalışdığı bütün teatrlarda çox maraqlı tamaşalar səhnələşdirirdi. Düşünürəm ki, dünyanı tərk edib gedənlər özlərindən sonra əməllərini qoyurlar. Bu qədər nəhəng insanların bizi tərk etməsi qalanlara örnək, görk olmalıdır. Həyat, yaşamaq, yaratmaq varkən gücümüzü, enerjimizi sənətə sərf edək. Özümüzdən sonra xatırlanacaq, alqışlanacaq işlər qoyaq. Azərbaycan peşəkar teatrının 150 yaşı var. Biz dünyanın teatr mədəniyyətinin dəyərli bir parçasıyıq. Azərbaycan tamaşaçısı Azər Paşa Nemətovu böyük sevgi ilə xatırlayacaq. Kollektiv də həmçinin. Bizim burda gözəl günlərimiz, uğurlu tamaşalarımız olub".

**Xalq artisti Hacı İsmayılov isə mərhum direktordan danışarkən göz yaşlarını saxlaya bilməyib:** "O heç vaxt istirahət etmədi. Çalışdığı illər ərzində heç vaxt məzuniyyətə çıxmadı. Bütün fikri teatrı inkişaf etdirmək idi. Teatra böyük məhəbbətlə bağlı idi. Həmişə bütün tamaşaları əvvəldən sona qədər izləyərdi".

Vida mərasimində həmçinin Mədəniyyət Nazirliyinin nümayəndələri, Millət vəkili Qənirə Paşayeva, sabiq nazir Əbülfəz Qarayev də iştirak edib.

Vida zamanı Xalq artisti Şəfiqə Məmmədovanın halı dəyişib. Sənətçidən mərhumla bağlı fikirlər almaq istəsək də, o, təzyiqinin aşağı düşdüyünü və özünü yaxşı hiss etmədiyini söyləyib.

*Xalq artisti Azər Paşa Nemətov İkinci Fəxri xiyabanda dəfn olunub.*

**Samirə**

# Evdən qaçan qızlar...

## Yüz səbəb, amma bir bəhanə var



### *Çox zaman zərif cinsin nümayəndələri ailə daxilində olan təzyiqlərdən yorulurlar*

**Bakıda 18 yaşlı qız itkin düşüb. DİN-dən verilən məlumata görə, Xəzər rayonu Binə qəsəbəsi sakini 18 yaşlı Şəfa İsgəndərli aprelin 4-də yaşadığı evdən çıxaraq bir daha geri qayıtmayıb. Bu barədə həmin şəxsin valideynləri Xəzər Rayon Polis İdarəsinin 3-cü Polis Şöbəsinə məlumat veriblər.**

Qeyd edək ki, son vaxtlar gənc qızların evdən qaçma halları geniş vüsət alıb. Xüsusən də 15-20 yaş arası qızların itkin düşməsi ilə bağlı xəbərlərə tez-tez rast gəlirik.

**Dəfələrlə bu cür vəziyyətlərə şahid olduğumuzu vurğulayan psixoloq Elnarə Xəlilova "Şərq" ə açıqlamasında deyib ki, bəzən ailələrin, cəmiyyətin qoyduğu qaydalar yetkinlik dövrünü yaşayan gənclərin səbrini daşırır və onlar evdən qaçmağı bu qaydalardan can qurtarmaq kimi görürlər.** Təbii ki, sosial şəbəkələrdə tanışlıq amili də əsas faktordur: "Bu yaşda qızlar həssas olurlar, ətrafda baş verən hadisələrdən tez təsirlənirlər. Buna görə də onları aldatmaq asan olur. Onların internetdən asılılığı, təsadüfi tanışlıqlar onların psixologiyasına təsirsiz ötüşmür. Yetkinlik yaşındakı qızların nəvazişə, qayğıya ehtiyacı olur. Bu qayğını isə onlara valideyn göstərməlidir. Qızlar ailədə mənəvi və ya fiziki zorakılıq gördükdə, azad həyat axtarışında olmaq istəyi ilə evdən qaça bilər. Onlar bu addımı atmaqla, azadlıqlarına qovuşacaqlarını və ailə basqısından yaxa qurtaracaqlarını düşünürlər. Bu məsələdə sosial şəbəkələr və serialların təsiri, Avropaya meyilliliyin yüksək olması da məlum tendensiyanın artmasına yol aça bilər. Çünki əvvəllər azad həyata meyl yüksək səviyyədə deyildi".

**Psixoloqun sözlərinə görə, Azərbaycan ailələrində oğlan qızlara nisbətən sərbəst böyüdülür deyə evdən qaçan qızların sayı çoxluq təşkil edir:** "Yəni qızlar çox zaman ailə daxilində olan təzyiqlərdən yorularaq evdən qaçırlar. Evdə mübahisələr, təzyiqlər qızlara daha çox tətbiq edilir, oğlanlar isə dostları ilə münasibətlər, evdən çıxma-evə qayıtma, qız dostları barəsində daha sərbəstdirlər.

Qızlar da evdən qaçaraq bu ayrı-seçkiliyə görə ailələrini cəzalandırdıqlarını düşünürlər. Güman edirlər ki, bu yolla azad, sərbəst olduqlarını valideynlərinə sübut edəcəklər. Onu da deyim ki, gənclər tanıdıqları, yaxın bildikləri dostlarının evinə qaçanda bu uzun sürmür. Lakin sosial şəbəkədə tanış olduğu adamla qaçan qızlar "yağışdan qaçıb yağmura düşür"lər. Dəfələrlə olub ki, valideyn qızını qaçırıblar deyə iddia edib, amma araşdırmalar zamanı qızlar tapılıb və məlum olub ki, öz istəkləri ilə evdən gediblər.

Evdən qaçan qızlar bir neçə gün sonra geri dönsə belə, bu vəziyyət ailə üçün əhəmiyyətli bir siqnaldır. Onların yenidən evdən qaçmaması üçün nələr edilməsi lazım olduğu, üzərində dayanılması lazım olan ən əhəmiyyətli hissədir.

Ailə bu mövzuda bir mütəxəssisdən dəstək almalıdır. Ailədaxili ünsiyyəti gücləndirmək, sevgini hiss etdirmək, yeniyetməni mühakimə etmədən dinləmək, sərhədləri və qaydaları təyin edərkən bunların səbəblərini öyüd-nəsihət vermədən, həqiqi və yetkinin də anlaya biləcəyi dillə izah etmək lazımdır. Biz belə xəbərləri eşidən zaman evdən qaçanlara qarşı aqressivlik göstəririk. Qaçmağa səbəb olanları isə heç düşünmürük. Nəzərə almaq lazımdır ki, evdən qaçan varsa, buna səbəb olan valideynlər də var".

**Şəymən**

# Tarixin ağ, qara üzü

## Nəriman Nərimanov millətin taleyini düşmənlərin ümidində qoymayıb



Həmayil Əhmədqızı

**N.Nərimanovun fəaliyyətini gözlərim önündə vərəqləyirəm, olduqca geniş və çoxsahəlidir: ictimai-siyasi, ədəbi-bədii və maarifçilik. Maarifçilik N.Nərimanovun fəaliyyətində xüsusi yer tutur. Gənc yaşlarında Qızıl Hacılı kəndində müəllim işləyən Nərimanov savadsızlığın millətin ayağında bir buxov olduğunu dərk edir. Savadsızlıqla yanaşı, cəhalətin, nadanlığın, xurafatın dərin kök saldığını görür. "Pir", "Nadanlıq", "Şamdan bəy" kimi əsərlərini yazır. Xalqımızın maariflənməsi üçün 1894-cü ildə Bakıda ilk qiraətxana açır. Dünyanın müxtəlif ölkələrindən öz xərci ilə qəzet, jurnallar gətirdir. Qiraətxananın istifadəsini müsəlmanlar üçün pulsuz, qeyri-müsəlmanlar üçün pullu edir. Çox təəssüflər olsun ki, Azərbaycanın şeyxülislamı jandarma idarəsinə yazıb iddia edir ki, qiraətxana müsəlmanlara ziyanlı bilgilər verir və qiraətxananın bağlanmasına çalışır. N.Nərimanov bundan çox təsirlənir.**

Əsasən ilklərə atılan imzalar N.Nərimanovun adı ilə bağlıdır. Azərbaycan dövlətçiliyinin, ikinci respublikanın yaranması, onun qorunub saxlanması Nərimanovun xidmətidir. Pedaqoji İnstitutun oğlanlar gimnaziyası onun təşəbbüsü ilə açılıb. Türk, Azərbaycan dilinin qrammatikasını, Azərbaycan və rus dillərini müəllimsiz öyrənmək üçün kitablar yazıb, ilk dəfə latın qrafikasına keçməyi N.Nərimanov təklif edib. Azərbaycan ədəbiyyatında ilk romanı - "Bahadır və Sona"nı, ilk tarixi faciəni, "Nadir şah" əsərini yazıb, N.V.Qoqolun "Müfəttiş" əsərini Azərbaycan dilinə tərcümə edib. Azərbaycan teatrının inkişafı üçün pyeslər yazıb, bəzən tamaşaya qoyulan əsərlərdə aktyor kimi çıxış edib. Azərbaycan məktəblərinin sayca artması, müəllimlərin birinci və ikinci qurultayının çağırılması onun xidmətidir.

İllər bir-birini əvəz etdikcə zaman Nərimanovu çiyinlərinə qaldırıb haqqı tapdanan müstəmləkəçilərin kölə halına saldığı Qoca Şərqi, türk dünyasının ağrısını, acısını ona açıb göstərir. Artıq N.Nərimanov təkcə öz milləti üçün deyil, bəşəriyyət üçün, Şərqin - müsəlman dünyasının gələcək taleyi uğrunda mübarizəyə başlayır. O dövrdə Azərbaycanın ikiqat zülmə məruz qaldığını görən Nərimanov Çar Rusiyasının "Parçala, hökm sür" siyasətinə qarşı çıxaraq respublika quruluşunu monarxiya quruluşundan üstün hesab edib, Azərbaycanı Çar Rusiyasının caynağından qurtarmaq üçün Rusiya Sosial-Demokrat Partiyasının üzvü olur.

N.Nərimanovun ictimai-siyasi fəaliyyəti olduqca ağır, mürəkkəb dövrə təsadüf edir. Onun əhatəsində olan düşmənlər tez-tez cildini dəyişən, hiyləgər və qəddar idi. N.Nərimanov bu hiyləgər düşmən şəbəkəsinə, sapı özümüzdən olan baltalara qarşı demək olar ki, təkbaşına mübarizə aparırdı. Təəssüflər olsun ki, genişlənən düşmən cəbhəsinin daxilində gənc azərbaycanlı bolşevikləri də var idi. Hiyləgər düşmənlər onlardan Nərimanova qarşı məharətlə istifadə edirdilər. 1923-cü ildə iclasda gənc azərbaycanlı bolşeviklərdən bir nəfər onu müsavatçı adlandırıb:

- Məhəmməd Əmin Rəsulzadənin xaricdə həyata keçirdiyi siyasəti Nərimanov mərkəzdə həyata keçirir.

*N.Nərimanovun milli maraqlar üçün apardığı siyasət mərkəzi narahat edir. N.Nərimanov Leninə məktubunda yazır:*

- Mən Puşkini, Dostoyevskini, Lermontovu sevirəm, ancaq Nizamini, Füzulini onlardan daha çox sevirəm. N.Nərimanovun xalqına sevgisinə görə ona otuz il millətçi damğası vurub adının çəkilməsinə qadağalar qoydular. Mərkəzin N.Nərimanova hücumu azmış kimi, özümüzünkülərin daha sərt ittihamları, hücumları təəssüf hissi doğurur. Bəzi çıxış edənlər Mart Qırğınında israrla N.Nərimanovun Şaumyanın yanında olduğunu bildirib onun ünvanına ağır ittihamlar söyləyirlər. "Hümmət" qəzetinin 36-cı sayında yazılır: "Qanlı hadisədən 4 saat qabaq şəhərdə qarşılıqdan xəbərdar olan N.Nərimanov evində "Hümmət" təşkilatının üzvlərindən və bir neçə tanınmış şəxslərdən ibarət məclis çağırır. O bu məclisə Şaumyanı da dəvət edir. Təsirli nitq söyləyir və üzünü Azərbaycan hökumətinin rəhbəri olan Şaumyana tutub deyir:

- Yoldaş, siz də, mən də bu müsəlmanların halını bilirik, hərgah bir ixtişaş başlasa, ayaq altında qalan fəqir-füqəra olacaq, (o vaxt milyonçuların əksəriyyəti malını, sərvətini qorumaq üçün xaricə qaçmışdılar) həmin fəqir-füqəra ki, siz də, mən də onun yolunda işləyirik. Ona bina mən təvəqqi edirəm, bu iş sülh yolu ilə həll olunsun.

*Şaumyan doktor Nərimanovla tam razı olduğunu bildirir. İclasdan sonra Şaumyan hərbi-inqilabi komitəsinə gedib məruzə edir. Görünür ki, yoldaş doktor Nərimanovun söylədikləri qəbula keçib. Çünki müsəlmanların vəkilləri təsvir edirdilər ki, bunlara Çaparidze dedi:*

- Siz arxayın gediniz, sabahları tüfənglər müsəlman siyasi firqələrinə veriləcək.

Vəkillər icraiyyə komitəsində olanda atışma başlayır. Atışmanın müsəlmanlar tərəfindən başlanıldığı iddia edilirdi. Bu yazı ilə tanış olduqda N.Nərimanovun millət sevgisinə heyran qalmamaq mümkün deyil. Heç zaman öz şəxsi məqsədi, şəxsi mənafeyi üçün qürurunu, şəxsiyyətini kiminsə qarşısında sındırmayan Nərimanov millətinin taleyi üçün narahat olur, düşmənə xahiş edir, qürurunu sındıraraq ona yalvarır. Budur Nərimanovun millətinə sevgisinin əyani sübutu. Belə bir deyim var: ya olduğun kimi görün, ya da göründüyün kimi ol. Bu deyimi siyasət insanına aid etmək mümkün deyil. Çünki onlar vətənin, millətin tale yüklü məsələlərində nifrət etdiyimiz düşmənlə də bir yerdə ola bilər, bizim düşüncəmizin əksinə olan fikirlər də söyləyə bilər. Bunu nə məqsədlə işlətdiyini bilmədən onu günahlandırmaqda haqlıyıqmı? İstər mətbuatda, istərsə də televiziyada Mart Qırğınında Nərimanovun Şaumyanın yanında olduğunu bildirərək onun ünvanına ən ağır ittihamları səsləndirirlər, bu, nə dərəcədə düzgündür? N.Nərimanovun harada, kimin yanında olmasından asılı olmayaraq, onu həmişə Vətənin, millətin taleyi düşündürürdü. Onun keçirdiyi əsəb, apardığı gərgin mübarizə qırğının genişlənməsinin qarşısını alsa da, onun sağlamlığını əlindən aldı. Mart Qırğınından üç gün sonra ayağı tutulan, ürəyində problemlər yaşayan Nərimanov xərəkdə Həştərxana müalicəyə göndərilir. Sağlamlığını itirən Nərimanov hər an, hər dəqiqə həyatını itirə biləcəyini düşünərək, kiçik yaşlı yeganə oğluna bir sıra, sanki vəsiyyət məktubları yazır.

*N.Nərimanov nəinki öz xalqının, Şərq xalqlarının da azadlığı uğrunda, haqq-ədalətin yer üzündə bərqərar olması üçün, böyüyən rus, erməni, gürcü şəbəkəsinə qarşı təkbaşına mübarizə aparırdı. Görəcəyi işlərinin yarımçıq qalacağını hiss edib oğlu Nəcəfə məktubunda yazır:* "Sən məni bəşəriyyət üçün az iş gördüyüm üçün məzəmmət etməyəsən. Bu mənada mən əminəm ki, mənim yarımçıq qalmış işlərimi davam etdirəcəksən". Hiyləgər, qəddar düşmənlər onun bu arzusunu ürəyində qoydular. N.Nərimanovun ideyalarını davam etdirəcəyinə söz verən yeganə oğlunu aradan götürdülər. Mənfur düşmənlər Nərimanovun nəslini beləcə baltalayıb yox etdilər. N.Nərimanov ailə səadətini dadıb doymayan, haqsızlıqlarla mübarizə apara-apara, sağlamlığını itirə-itirə gərgin bir həyat yaşadı. O, istər həkim kimi, istərsə də yaradıcı bir insan kimi sakit, xoşbəxt bir həyat tərzi sürə bilərdi. Lakin o, millətinin taleyini düşmənlərin ümidinə qoymayıb tufanlı, fırtınalı bir həyat seçdi. Mərkəz otuz il Stalinin ölümünə qədər Nərimanova xalq düşməni, millətçi damğası vurdu. Düşmənlərimizin ən qatı düşməni N.Nərimanov idi. Düşmənlərimiz düşmənini yaxşı tanıdı. İstər sağlığında, istərsə də ölümündən sonra. Çox təəssüflər olsun ki, bugünədək düşmənlərimizin düşmənini biz yaxşı tanıya bilməmişik. Son otuz ildə N.Nərimanova qarşı tənqidlər həddini aşaraq bəzən təhqir səviyyəsinə çıxır. Bəziləri onu Azərbaycanın istiqlalının qatili, cəlladı adlandırır.

Azərbaycanın müstəqilliyi bütün xalqımızın istəyi, arzusu idi. Ancaq bu istəyi həyata keçirmək üçün siyasətçilərimizin seçdiyi yollar müxtəlif - radikalların yolu daha qısa, sosial-demokratların yolu nisbətən uzun olub. XX əsrin əvvəllərində dövlətçilik ənənəsi, güclü ordusu olmayan, düşmən əhatəsində müstəqil dövlətin mövcudluğu və inkişafı istər-istəməz sual yaratmırmı? 1918-ci ildə bizə dost, qardaş olan Türkiyə ən çətin günlərini yaşayırdı. Özünün köməyə ehtiyacı olduğu bir halda Azərbaycana necə kömək edə bilərdi? Azərbaycanı şaqqalayıb ikiyə bölən, zəbt edən Azərbaycan dövlətinin varlığını, Azərbaycan sözünü belə qəbul etməyən İranın münasibəti bizə aydın deyildimi?! Uzun illər Azərbaycanın qanını, canını zəli kimi soran Rusiya yağlı tikəni ağzından çıxarardımı? Bu günə kimi cilddən-cildə girən hiyləgər, qəddar, arxalı köpək Azərbaycanın müstəqil inkişafına imkan verərdimi? Həmişə ikili siyasət yürüdən, yaxın zamanlara kimi adımızı belə doğru-düzgün dillərinə gətirməyən, bizi tatar adlandıran digər qonşumuzun etibarına güvənmək olardımı? On dörd respublikanı cənginə alan Rusiya yenicə ayaq üstə duran Azərbaycanla bacara bilməzdimi? Nərimanovu tənqid edib onu çox zəif siyasi oyunçu adlandıranın əksinə, Nərimanov güclü, uzaqgörən bir siyasətçi kimi tarixi şəraiti nəzərə alıb, özünün güvəndiyi, inandığı yolu seçib.

N.Nərimanov zəif oyunçu olsaydı, başda Stalin olmaqla rus, erməni şəbəkəsinə qarşı son nəfəsinə kimi "oyunu" davam etdirə bilməzdi. Zəif oyunçu olsaydı, 1920-ci il mayın 2-də Orconikidze və Kirov Leninə teleqram göndərərək, Qafqazda və daha geniş ərazidə kiməsə veriləcək səlahiyyəti nəbadə N.Nərimanova verəsiniz. Bu səlahiyyət Orconikidzeyə verilir. N.Nərimanov Qafqazda səlahiyyət sahibi olmasından gürcü, rus cütlüyü niyə bu qədər təşvişə, qorxuya düşür? Axı zəif siyasi oyunçuyla oynamaq istədiklərini əldə etmək çox asandır! Cütlüyün işlətdiyi nəbadə sözü Nərimanovun necə "oyunçu" olmasından xəbər vermirmi? Mərkəzdə Azərbaycanın taleyi bağlı qapılar arxasında həll olunanda təkbaşına "zəif oyunçunun" hansı hücumlara məruz qaldığından, Vətənin, millətin xeyrinə nələrin necə həll olunduğundan biz güclülərin xəbəri varmı? Kənardan baxana döyüş çox asan gəlir. Sevimli şairimiz B.Vahabzadənin sözlərini xatırlayıram:

"- N.Nərimanovu ittiham edənlər gərək əvvəlcə vicdanları qarşısında cavab versinlər ki, onlar N.Nərimanovun xalq üçün etdiyinin mində birini ediblərmi?". Bəxtiyar müəllimin bu sözlərindən sonra artıq söz deməyə ehtiyac qalmır. Mətbuatda, televiziyada bəzi çıxış edənlər tez-tez millətin atası Hacının N.Nərimanova soyuq münasibətini, aralarında kəskin ziddiyyət olduğunu bildirirlər. Təəssüflər olsun ki, bu ziddiyyətin nədən ibarət olduğu tam açıqlanmır.

N.Nərimanovun geniş, əhatəli fəaliyyətini diqqətlə izlədikdə, oğlu Nəcəfə, Leninə yazdığı məktublarla tanış olduqda onun millətini sevən, torpağına bağlı, haqqı, ədaləti ömrünün sonuna qədər müdafiə edən, əqidəsinə sadiq bir obraz canlanır. N.Nərimanov sağlam gövdəli möhtəşəm palıd ağacına bənzəyir, düşünürəm bəzi tənqidçilər, nədənsə, bu ağacın gövdəsində deyil, qol-budaqlarında qüsur arayıb-axtarırlar. Bu axtarışların nümunəsi: N.Nərimanov haki-



miyyətə gəlmək üçün hər şeyi məqbul sayırdı. İsa bəy Aşurbəylinin MTN-in arxivində saxlanılan izahatını misal çəkirlər. İzahatda qeyd olunur: "N.Nərimanov yaşca ondan iki dəfə gənc, vərəmli, cılız, üstəlik eybəcərin birisi olan baldızım Sona xanımla evlənmək istəyirdi. Ancaq baldızımın nağd 20 min manata qədər cehizlik pulu vardı. Nərimanovun maddi cəhətdən evlənmək istədiyinə qəzəbləndim və evlənməyə razılıq verməyə qoymadım. Bundan sonra Nərimanovla aramızda salam-kəlam kəsildi". Yazı ilə tanış olduqda bu izahatın MTN-in təcridxanasında kimlər tərəfindən, hansı təhdid və təzyiqlərlə yazıldığı açıq-aydın hiss olunur. Bu izahatın hansı məqsədlə mətbuata verilməsi aydın deyil. Sona xanımın xəstəliyinin açıqlanması, fiziki qüsurlarının yeznəsi tərəfindən sadalanması etik qaydalara uyğundurmu? Bu yazılanların Nərimanovun hakimiyyətə gəlmək üçün hər şeyi məqbul sayması ilə nə əlaqəsi var? O ki qaldı, yazı müəllifinin təbirincə desək, pul hərisi olmasına, Nərimanov pul, var-dövlət hərisi olsaydı, mərkəzdəki səlahiyyət sahibləri kimi onun da xarici banklarda milyonları, milyardları olardı. Onu təftiş edənlərin istəyini gözündə qoymazdı. Ölümündən sonra həyat yoldaşı Gülsüm xanım acınacaqlı vəziyyətdə yaşamazdı. İstər N.Nərimanov (səhv etmirəmsə, onlar qohum olub), istərsə də İsa bəy Aşurbəyli hiyləgər, qəddar düşmənlərdən yetərincə aldıqlarını alıb. Bizim onların ruhunu incitməyə mənəvi haqqımız varmı?!

N.Nərimanovun ünvanına söylənilən daha "orijinal" bir fikir, N.Nərimanov çıxış edənin təbirincə desək, varlılara, dövlətlilərə qibtə, paxıllıq edirmiş. Bir ovuc varlılara qibtə, paxıllıq edən N.Nərimanov, görəsən, milyonlarla kölənin, məzlumun, hüquqları tapdanan, bir tikə çörəyə möhtac olanların halını görüb hansı hisslər keçirirmiş?! Təəssüflənirəm, insan mənəviyyatını məhv edən, dağıdan belə bir mənfi xüsusiyyəti Nərimanovun şəxsiyyətinə necə yaraşdırırlar. Bir-birinin ardınca uydurulan böhtanlarda, iftiralarda məqsəd, niyyət nədir?! Daha bir iftira N.Nərimanov Qafqaz ictimai xadimi İsmail Qaspıralının qızı Şəfiqə xanıma evlənmək təklifi edir. Nəsib bəy də Şəfiqə xanıma öz istəyini bildirir. Şəfiqə xanım Nəsib bəyin təklifini qəbul edir. Nərimanov onları təbrik edir, məsələ bununla bitir. Nərimanova qara yaxanlar məsələni bununla bitirməyib duel səhnəsi düzəldirlər. Nərimanov, guya, Nəsib bəyi duelə çağırır, onun gülləsi boşa çıxır, növbə Nəsib bəyə çatır. O, silahı yerə atır və deyir:

**- Mən əlimi azərbaycanlı qanına bulamaram.**

*Təəssüf hissi ilə söyləyirəm, bəyəm N.Nərimanov əlini azərbaycanlı qanına bulayan bir insan idi?! N.Nərimanovun dediyi sözləri xatırlayıram:*

- Heç bir millət qılınc və tüfəng gücü ilə qabağa getməyib, ancaq elmin gücü ilə tərəqqi etmək mümkündür.

Belə bir əqidənin sahibi heç zaman əlinə silah alıb kiməsə tuşlamaz, bu, Nərimanovun xarakterinə yad olan və ona atılan növbəti nifrət dolu bir iftiradır. Əgər Nərimanov Nəsib bəyi vursaydı, onu sevməyən qıza silah gücü iləmi sahib olacaqdı?! Bu nə ağla, nə də məntiqə sığmayan böhtandır! Bir məsələyə də münasibətimi bildirmək istəyirəm. N.Nərimanovun fəaliyyətində türk dünyası, türk xalqlarının gələcəyi əsas yet tutur. Türk xalqlarının müstəqil respublika kimi Sovet Rusiyasının tərkibinə daxil olması N.Nərimanovun birbaşa xidmətinin nəticəsidir. Əks halda, çeçenlərin, tatarların və digər türk xalqlarının taleyini onlar da yaşayardılar. XX əsrin əvvəllərində N.Nərimanov Türkiyənin çətin anında qardaşlıq köməyini etmiş, Türkiyə dövlətinin ayaqda durmasına yardım göstərmişdi. Atatürk bu böyük yardımdan narahat olub borc kimi qaytaracağını N.Nərimanova bildirəndə, o, cavabında deyir:

**- Paşam, bizdə qardaş qardaşa borc verməz. Qardaş qardaşa ehtiyacı olan zaman yardım edər, əl tutar.**

Təəssüflər olsun ki, türk qardaşlarımız demək olar ki, N.Nərimanovu tanımırlar, tanıyanların isə əksəriyyəti yanlış tanıyır. Azərbaycanın ən çətin anında qardaş Türkiyə bizimlə bir olub, hərtərəfli dəstəyini göstərib. Təəssüflər olsun ki, bu iki dövlətin qardaşlıq münasibətinə həddindən çox qısqananlar var. Acı da olsa deməliyəm ki, bu qısqanclıq daxilimizdə də var. Bu qardaşlığı gözü götürməyənlər dərk edirlər ki, arxa-arxaya söykənən qardaşları məğlub etmək çox çətindir. Allah bu iki qardaşı heç zaman qarşı-qarşıya gətirib arxasını boş qoymasın. Amin!

Bəzi tədqiqatçılar N.Nərimanovu, M.Ə.Rəzulzadəni, Ə.Hüseynzadəni bir-birlərinə qarşı qoymağa çalışıblar. Onlar heç vaxt bir-birilə nə mübarizə aparıblar, nə də bir-birinə düşmən mövqeyi tutublar. Çünki onların hər biri vətən, millət aşiqi idi. Ürəklərində ancaq vətən, millət sevgisi yaşayırdı. Onlar qarşı-qarşıya deyil, sıra ilə yan-yana düzülməlidir. Sıranın genişliyi xalqımızın fəxri, iftixarıdır. Bu sıraya baxıb hər birimiz xalqımızın şərəfli, layiqli oğulları ilə fəxr etməliyik. Onlar istər xarici, istərsə də daxili düşmənlər tərəfindən yetərincə aldıqlarını alıblar, ruhlarını incitməyə heç birimizin mənəvi haqqı yoxdur. Zaman-zaman kitabların vərəqlərindən silsələr də, tarixin səhifəsində silməyə heç kəsin gücü yetməz. Onlar millətin qəlbində nur, yolunda heç zaman sönməyən bir mayakdır.




## "Nar" ötən il sosial layihələrə 5 milyon manatdan çox investisiya yatırıb

**Azərbaycanın mobil operatoru - "Nar" ötən il müxtəlif əhəmiyyətli sosial layihələrə ayırdığı vəsaitin məbləğini açıqlayıb.**

Şirkət il ərzində mobil operator fiziki məhdudiyyətli insanların dəstəklənməsi, elm və təhsil, eləcə də milli-mənəvi irs, vətənpərvərlik istiqamətində müxtəlif layihələrə 5 milyon manatdan çox vəsait yatırıb.

"Nar" olaraq 2022-ci ildə 20-dən çox sosial layihə gerçəkləşdirdik. Bu layihələr birbaşa minlərlə insanın həyatına müsbət dəyişiklik gətirib. Bundan başqa, beynəlxalq səviyyədə qəbul edilmiş BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə töhfə vermək üçün qurumun Qlobal sazişinə qoşulmuş ilk mobil operator olduq. Bu da bizə sosial təşəbbüslərdə beynəlxalq təcrübədən yararlanmağa imkan verir. Cari ildə də önəmli sosial layihələrə dəstəyimizi davam etdirmək niyyətindəyik", - deyə "Nar"ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov bildirib.

Ötən il həyata keçirilmiş layihələrdən "Təlim Məktəbi" və "Jestdili.az" ı xüsusi vurğulamaq lazımdır. "Təlim Məktəbi" layihəsində nitq-eşitmə məhdudiyyətli şəxslərin cəmiyyətə inteqrasiyası və maddi sərbəstliyi üçün müxtəlif peşə təlimləri tədris olunur. Bundan başqa, "Jestdili.az" eşitmə və nitq məhdudiyyətli şəxslərin daha rahat ünsiyyətinə dəstək məqsədilə yaradılmış onlayn lüğətdir. İstifadəçilərin harada olmasından asılı olmayaraq daim faydalanma imkanı verən bu lüğətdə video, foto və təsviri mətn formasında 5 mindən çox söz toplanıb.

Həyata keçirilən layihələr ölkədə və beynəlxalq səviyyədə yüksək qiymətləndirilib. "Jestdili.az" layihəsi "NETTY 2022" milli internet mükafatını qazanıb, öncəki illərdə isə "Təlim Məktəbi" layihəsi "Eventiada IPRA Golden World Awards" (Beynəlxalq İctimaiyyətlə Əlaqələr Assosiasiyası Qızıl Dünya Mükafatı) müsabiqəsində "Ən yaxşı sosial layihə" nominasiyasında qalib olub. "Nar"ın həyata keçirdiyi digər sosial layihələrlə bağlı ətraflı məlumatı buradan əldə edə bilərsiniz.

**Elan**

Alməmmədov Murtuz Alov oğlunun adına verilmiş SQ N0027330 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 940



## Polis dovşanı "saxladı", gündəm oldu

**ABŞ-nin Kaliforniya ştatında patrul xidməti zamanı bir dovşanla rastlaşan polis əməkdaşı Karson B-Gravesin onu polis bölməsinə aparması və Persi adı verilən dovşana 'K9' forması geyindirməsi sosial mediada gündəm olub.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, hadisə 22 aprel 2022-ci ildə ABŞ-nin Kaliforniya ştatının Yuba şəhərində baş verib.

Yuba Şəhər Polis İdarəsindən verilən açıqlamada bildirilib ki, dovşan heyvan nəzarət mərkəzinə aparılıb: ”Biz dovşanı tapıldığı küçəyə görə Persi adlandırmağa qərar verdik. Persi övladlığa götürüləndən bəri polis şöbəsində bizim ”tibb işçimiz” kimi fəaliyyət göstərir. İnsanların çoxu onun varlığından zövq alsa da, bəziləri hələ də dovşanın polis şöbəsində olması fikrinə öyrəşməyə çalışırlar”.

**Nihat Müzəffər**

## Abramoviçin Marmarisdəki yaxtası

Vətəndaşların və xarici turistlərin marağına səbəb olub



**Rusiyalı iş adamı Roman Abramoviçin ”My Solaris” adlı yaxtası Marmaris limanına yan alıb.**

Abramoviçin yay mövsümündə Muğla sahillərində olan və üzərində Bermud adaları bayrağı olan yaxta Marmaris Kruiz Limanının böyük estakadasına bağlanıb. Uzunluğu 139 metr, eni 26 metr, helikopterin eniş meydançası və üzgüçülük hovuzu da olan yaxta limanda vətəndaşların və xarici turistlərin marağına səbəb olub.

**Turan**

## Eyni gündə 100 nəfər evləndi

### İcma daxili vəsaiti hesabına hər il belə toplu nikah mərasimləri düzənləyir



**Bu möhtəşəm hadisə Güney Afrikada yaşanıb. ”Şərq” ”NTV.com.tr”yə istinadən bildirir ki, Güney Afrikada yüzlərlə gəlin və bəy eyni gündə rəsmi nikaha daxil olub. Toplu nikah mərasimi Pasxa bayramı gününə təyin edilib. Evlənənlərin kəbini 1962-ci ildə inşa edilmiş Beynəlxalq Pentekost Kilsəsində kəsilib. Bu kilsədə ildə 3 dəfə toplu nikah mərasimləri düzənlənir. Dekabr ayında, Pasxa bayramında və kilsənin inşasının ildönümündə - sentyabr ayında. Toplu nikah mərasiminin keçirildiyi Güney Afrikanın paytaxtı Johannesburqda adətə uyğun olaraq evlənməyə hazırlaşan gəlinlər və bəylər ağ, evli cütlüklərsə rəngbərəng libaslar geyinir. Pasxa bayramında Güney Afrikadakı Müqəddəs Hamsin Kilsəsində də toplu nikah mərasimi düzənlənib, burada 400-dən artıq cütlük nikaha daxil olub. Sözügedən kilsənin 3 milyonluq icması var və icmadaxili vəsaiti hesabına hər il belə toplu nikah mərasimləri düzənləyir.**

**Məlahət**

## Yumurtanın axşam yeməyində faydaları



**Mütəxəssislər arıqlamaq istəyənlərə səhər yeməyində deyil, axşam yeməyində yumurta yeməyi məsləhət görür.**

**Lent.az xəbər verir ki, bu barədə ”Rosbalt” məlumat yayıb.**

**Tədqiqatçılar müxtəlif vaxtlarda yumurta yeməyin daha yaxşı arıqlamağa kömək etdiyini müəyyən ediblər. Belə ki, əgər məqsəd arıqlamaqdırsa, o zaman proteinlə zəngin pəhrizin köməyi ilə buna daha tez nail ola bilərsiniz. Protein maddələr mübadiləsini stimullaşdırır və digər şeylər arasında əzələ kütləsinin saxlanmasına və qurulmasına kömək edir. Yumurta yüksək protein tərkibinə görə arıqlamaq üçün də ideal qəlyanaltıdır. Ölçüsündən asılı olaraq, bir yumurtada təxminən altı qram protein var.**

## İstanbulda 1500 illik yeraltı keçid tapılıb



**İstanbul Böyükşəhər Bələdiyyəsinin (İBB) Polyeuktos kilsəsinin qalıqları içərisində apardığı qazıntılar nəticəsində 1500 illik tarixə malik yeraltı keçid aşkar edilib.**

**Trend-in TurkicWorld-a istinadən məlumatına görə, Saraçhane Arxeologiya Parkında yerləşən 1500 illik Polyeuktos kilsəsi ərazisində arxeoloji qazıntılar davam edir. Yeraltı dəhlizin içərisində mərmərlə formaya salınmış, relyeflərlə bəzədilmiş mozaika və daş hörgüləri tapılıb. Bələdiyyə sədrinin müavini Mahir Polat tikilinin İstanbulda zəlzələ tədqiqatları üçün dəyərli nümunə olduğunu vurğulayıb. O, həmçinin, Saraçhane Arxeologiya Parkının bir ay sonra istifadəyə veriləcəyini açıqlayıb.**

***Qeyd edək ki, arxeoloji qazıntı işlərinə 2022-cidə başlanılıb.***



# "Cahan pəhləvan" diri-diri basdırıldı!

## Qəbri açılanda insanlar gördüklərinə inana bilmədi

**”Cahan pəhləvan”ı adını almış Qara Əhmədin həyatı və vəfatı hələ də dillərdə dastandır. Məzara qoyularkən pəhləvanın diri olması rəvayətləri də dolaşır. ”Şərq” ”Milliyet.com”a istinadən Qara Əhməd pəhləvanın həyatına işıq tutur. Şöhrəti Anadolunu aşaraq Avropaya yayılmış Qara Əhmədin boyu 1.80, çəkisi 105 kiloqram olub.**

Qolları möhkəm, əzələli, biləkləri qalın, əlləri isə aslan pəncəsinə bənzəyirmiş. Boynundan 3 musqa (içində dua olan bükülü) asarmış. Türkiyəli yazar Əhmət Midhət Əfəndi Qara Əhmədi belə təsvir edib. Qarşısında heç bir pəhləvanın duruş gətirə bilmədiyi Qara Əhmədin ölümü isə əsl qorxu filmlərini xatırladır. Qara Əhməd Bolqarıstanın Rusçuk bölgəsində, Razqrad əyalətinin Umurköy kəndində 1971-ci ildə doğulub. Atası Uzun Əli adıyla tanınırmış. Əhmədin doğulduğu bölgə pəhləvanları ilə məşhur olub. Bura Osmanlının qolu bükülməyən pəhləvanlarının yurdu sayılıb. Qara Əhməd də qolu bükülməyən pəhləvanlar sırasındadır. 20 yaşına çatdığında qarşısına çıxacaq, ona rəqib sayılacaq bir başqa pəhləvan olmayıb. Qara Əhməd ”bu yurdda qalırsam, döyüşməyə bir kimsə tapmayacağam”, fikri ilə bölgəni tərk edib, 1892-ci ildə İstanbula gəlib. İstanbulda Taxtaqala Ləbləbiçi Karvansarayına yerləşib. Burada həmyerlisi İbrahim Pəhləvanın şagirdi olub və misirli şahzadə Abbas Həlim Paşanın himayəsinə keçib. Beləliklə ”Paşanın pəhləvanı” kimi tanınıb. Gelibolu mövləvi şeyxi Mustafa Daniş Əfəndinin təşkil etdiyi güləş yarışına qatılıb. Kazandərəli məşhur Məmiş pəhləvanı yarışda məğlub edib. Beləcə məşhurlaşmağa başlayıb. Yarışlarda iştirak edən Qara Əhməd avropalıların da diqqətini çəkir. Çardaq güləşində qalib gələn Qara Əhməd parisli Pyerin dəvətiylə Fransaya gedib. Və Avropada güləş yarışlarına qatılıb. Avropada yarışlara qatılan Qara Əhmədin kürəyini kimsə yerə vura bilməyib. Rusiyada da dəfələrlə meydançaya çıxıb və həmişə də qalib olub. 1896-cı ildə qalib, yenilməz pəhləvan olaraq İstanbula dönüb. Amma Qara Əhməd heç vaxt yağlı güləş yarışlarına qatılmayıb, çünki qolları güclü olsa da, qısa idi. Qara Əhmədin bədən quruluşu yunan-roma güləşi (ayaqlara toxunmadan icra olunan güləş növü) üçün uyğun olub. İstanbulda bədən tərbiyəsi dərsləri təlim edib. Fransız dilini öyrənib. 1899-cu ildə yenidən Parisə səfər edib və qatıldığı güləş yarışlarında qalib olub. Məşhur avropalı pəhləvan Laurentlə 1 saat 6 dəqiqə sürən yarışda da Qara Əhməd qalib gələrək ”Cahan Pəhləvanı” titulu qazanıb, qızıl medalla və pul mükafatıyla təltif edilib. Qara Əhmədin Paul Pons adlı fransız pəhləvanla güləşi tarixi hadisə olub. Pəhləvanlar 26 dəfə qarşılaşıb. Sonda yenə Qara Əhməd qalib olub. Bu yarışmadan sonra xalq Qara Əhmədi qəhrəman kimi qarşılayıb. Bir müddət sonra pəhləvanın ayaqlarında şiş əmələ gəlib. Səhhətində problem yaranıb. Həkim ürəyində problem olduğunu deyib, lakin o, müalicə almayıb, səhhətinə fikir verməyib. 1902-ci ildə yenidən Parisə gedib, yenə yarışlara qatılıb, qalib gəlib. Lakin sinəsində və qollarında sancılar başlayıb, o, yarışı yarımçıq saxlamalı olub. Xəstəxanaya yerləşdirilib. Bir neçə günlük müalicədən sonra İstanbula qayıdıb. Artıq güləşi tərk edib, dövlətin bağışladığı evdə yaşayıb. 1902-ci il may ayının 25-də ”özümü yaxşı hiss etmirəm” deyən Qara Əhməd yerə yıxılıb, qalxmaq istəsə də bacarmayıb, son nəfəsində ”Ah, Ayşə ” söyləyərək həyat yoldaşının adını çəkib. Qara Əhmədin ölüm səbəbi ürək tutması qeyd edilib. Vəfat etdiyində 32 yaşı vardı. Deyilənə görə, dəfn edildiyi gün bütün gecə məzarından inilti səsləri gəlib. Ertəsi gün məzarı açılıb. Məzar açıldığında mənzərə ilə qarşılaşanlar şoka düşüb. Qara Əhmədin başı bədənindən ayrılıbmış! Əlləri də qan içində olub. Məlum olub ki, pəhləvan sadəcə, bayılıbmış, amma onu öldü sanıblar, canını tapşırmamış kəfənləyib, dəfn ediblər. Belə çıxır ki, Qara Əhməd məzarda oyanıb, oradan çıxmağa can atıb, buna görə də əlləri, sinəsi qana bulaşıb. Qara Əhməd yenidən yuyularaq kəfənlənib və təkrar dəfn edilib. Məzarının üstünə belə bir şeir həkk edilib:



**Oku bir fatiha geç öyle zair,**
**Ki kalmaz kimseye bu dehri fani,**
**Suküta penç ile kaydoldu tarih,**
**Cihan arslanı terk etdi cihanı.**

**Məlahət Rzayeva**






# Pentaqondan sızan sənədlər

## Ukraynanın hava hücumundan müdafiə sistemi tükənəcək

**Dünya aylardır Rusiya ilə Ukrayna arasında gedən müharibəni qorxu içində izləyir. On minlərlə insanın həyatına son qoyan müharibə tam sürətlə davam edərkən, sızdırılan sənədlər Ukraynada ”soyuq duş” effekti yaradıb.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, Pentaqonun sızdırılmış sənədlərində Ukraynanın hava hücumundan müdafiə sisteminin tükənəcəyi və Putinin döyüş təyyarələrinin hava üstünlüyünü tam şəkildə əldə edəcəyi proqnozlaşdırılır.

İfşa edilmiş məxfi sənədləri araşdıran ”The New York Times” (NYT) yazıb ki, Ukraynanın cəbhə xəttindəki qoşunları qoruyan hava hücumundan müdafiəsi mayın 23-dək təsirsiz hala düşə bilər.

23 fevral tarixli və ”Məxfi” olaraq qeyd olunan sənədlərdən birində isə Ukraynanın ”S-300” hava hücumundan müdafiə sistemlərinin Rusiya qüvvələrinin təkrar hücumlarından sonra yalnız mayın 2-nə qədər tab gətirə biləcəyi barədə məlumatlar yer alır.

Başqa sözlə, Pentaqonun yeni sızdırılmış sənədlərinə görə, Ukraynanın hava hücumundan müdafiə sistemi həftələr ərzində tükənərək, ölkəni Putinin döyüş təyyarələri qarşısında aciz vəziyyətə salma ehtimalı var.

Hərbi ekspertlər isə xəbərdarlıq edirlər ki, ABŞ-nin 2 milyard dollar yardımı Ukrayna üçün kifayət etməyə bilər.

Hətta NYT-yə danışan ABŞ rəsmisi yardımın Ukraynanın hücumundan əvvəl mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Çünki sızan sənədlərə görə, Ukraynanın ehtiyatları sürətlə tükənir və bu, Rusiya təyyarələrinə hücum üçün pəncərə açır.

Qeyd edək ki, ABŞ Pentaqonun sızdırdığı sənədlərlə bağlı araşdırmaya başlayıb.

ABŞ rəsmiləri istintaqın ilkin mərhələdə olduğunu və sızmanın arxasında kimin ola biləcəyinin hələ də bəlli olmadığını bildirib.

**Nihat Müzəffər**

## 2060-cı ilə qədər insan ömrü uzanacaq



**İnsanlar hələ də gözlənilən uzun ömür həddinə yaxınlaşmayıblar.**

”Medicina” xəbər verir ki, ABŞ Corciana Universitetinin mütəxəssisləri insanın 122 ildən çox yaşaya biləcəyini müəyyən edib.

122 il 1997-ci ildə vəfat edən Janne Calmentin yaşadığı maksimum qeydə alınan yaşdır. Alimlər hesab edirlər ki, 2060-cı ilə qədər insanın ömrü 150 ilə qədər uzanacaq.

Tədqiqatçılar 19 inkişaf etmiş ölkədə, o cümlədən Yaponiya, ABŞ, Avstraliya və digərlərində 50-100 yaş arası insanlar haqqında məlumatları təhlil edərək bu qənaətə gəliblər.

”1900-1950-ci illər arasında doğulmuş insanlar ölüm nisbətində tarixdə görünməmiş bir gecikmə yaşayırlar. Bu qrup insanlar növbəti onilliklərdə qocalığa çatdıqca, uzunömürlülük nisbətləri əhəmiyyətli dərəcədə arta bilər. Nəticələrimiz təsdiqləyir ki, əgər insan ömrünün maksimum həddi varsa, biz hələ ona yaxınlaşmamışıq”, - alimlər bildirib.

## Dubayda 15 milyon dollara avtomobil nömrəsi satılıb




**“Telegram” messencerinin yaradıcısı Pavel Durov dəyəri 15 milyon dollar olan avtomobil nömrəsi uğrunda mübarizədə uduzub.**

Məlumata görə, aprelin 8-də Dubayda yerli Nəqliyyat Nazirliyinin təşkilatçılığı ilə xeyriyyə hərracı keçirilib. Hərraca yalnız bir rəqəmdən (7) ibarət avtomobil nömrəsi çıxarılıb.

Oxu.az xəbər verir ki, Lotun başlanğıc qiyməti 15 milyon dirhəm ( təxminən 4 milyon dollar) olub. Durov avtomobil nömrəsi üçün 35 milyon dirhəm (təxminən 9.5 milyon dollar) təklif edib. Ancaq bir neçə dəqiqədən sonra onun təklifi daha yüksək məbləğlə qüvvədən düşüb. Alıcı anonim qalmaq istəyib.

Dünyanın ən bahalı avtomobil nömrəsi yekunda 55 milyon dirhəmə (təxminən 15 milyon dollara) satılıb.

Satışdan əldə olunan gəlirin bir hissəsi şəhər infrastrukturunun inkişafına, digər hissəsi isə bütün dünyada ehtiyacı olan insanlara ərzaq göndərən bir fonda yönəldiləcək.